AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

**VÜSALƏ MUSALI**

# TÜRK TƏZKİRƏÇİLİYİ

BİBLİOQRAFİYA

**«Elm və təhsil»**

**BAKI –2011**

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 6 iyul 2011-ci il 7 saylı iclasının qərarı ilə nəşr edilir.

Elmi redaktoru: Azadə Musayeva,
filologiya elmləri doktoru,
professor

**Musalı (Səmədova) Vüsalə Azər qızı. Türk təzkirəçiliyi (biblioqrafiya). – Bakı, "Elm və təhsil", 2011, 381 s.**

Kitabda Türk xalqlarının təzkirəçilik ənənəsindən bəhs olunmuş, təzkirələrin mənşəyi və strukturu haqqında məlumat verilmiş, Herat təzkirəçilik məktəbi, İran, Osmanlı və Azərbaycan təzkirəçiliyi tarixinə nəzər salınmışdır. Əsərdə Azərbaycan və Osmanlı şair təzkirələrinin dünyanın müxtəlif əlyazma xəzinələrinə səpələnmiş əlyazma nüsxələrinin elmi-paleoqrafik xüsusiyyətləri verilmiş, təzkirələrə həsr olunmuş kitab, məqalə və dissertasiyaların biblioqrafik təsviri yer almışdır.

© AMEA Əlyazmalar İnstitutu

*Uşaqlığımın ən gözəl illərini yanında keçirdiyim, köhnə Bakı haqqında söhbətlərindən doymadığım və bu kitabı hazırlayarkən dünyadan köçən çox hörmətli babam* ***Böyükağa Kərim oğlu Məmmədovun*** *əziz xatirəsinə ithaf edirəm.*

# ÖN SÖZ

Şair təzkirələri ədəbiyyat tarixinin çox dəyərli və əvəzsiz qaynaqlarındandır. Sözün həqiqi mənasında, əgər təzkirələr qələmə alınmasaydı, bu gün bir çox şairin adı ədəbiyyat tarixindən silinəcəkdi. Məsələn, Sam mirzənin "Töhfeyi-Sami" və Sadiq bəy Əfşarın "Məcməül-xəvas" təzkirələri Səfəvi dövrü Azərbaycan ədəbiyyatı tarixinin önəmli mənbələrindəndir. Əhdi Bağdadinin "Gülşəni-şüəra"sı isə Bağdadda yaşayıb-yaratmış azərbaycanlıların, eləcə də Osmanlı ölkəsinə mühacirət etmiş şairlərimizin həyat və yaradıcılığını öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. Yalnız azərbaycanlı təzkirəçilərin deyil, həm də Orta Asiya və Osmanlı müəlliflərinin qələmə aldığı təzkirələr Azərbaycan ədəbiyyatı tarixinin mühüm mənbələrindən hesab oluna bilər. Osmanlı təzkirələri üzərində apardığımız araşdırmalar bunu bir daha təsdiq edir. Belə ki, tədqiqatlar nəticəsində məlum olmuşdur ki, XVI-XX əsrlərdə qələmə alınmış Osmanlı təzkirələrində təxminən 60 nəfərə yaxın Azərbaycan şairinin həyatı, yaradıcılığı və əsərlərindən nümunələr öz əksini tapmışdır. Bu şairlərin yarıya qədəri məhz Osmanlı təzkirələrində xatırlanmış, fəqət Azərbaycanda tədqiq olunmamışdır[1].

[1] Bax: Musalı V. Osmanlı təzkirələrində Azərbaycan şairləri. Bakı, Nurlan, 2009, 368 s.

İndiyə kimi bəzi Azərbaycan təzkirələri - "Məcməül-xəvas", Seyid Əzim Şirvani "Təzkirə"si, "Riyazül-aşiqin", "Danişməndan-i Azərbaycan", "Təzkire-yi Nəvvab", "Təzkire-yi Şahin" respublikamızda işıq üzü görmüşdür. Bu qeyd olunanlardan əlavə, AMEA Əlyazmalar İnstitutunun əməkdaşları tərəfindən Sam mirzənin "Töhfe-yi Sami"si, Əziz Dövlətabadinin "Süxənvəran-i Azərbaycan"ı və Qulam Məmmədlinin "Təzkirə"si nəşrə hazırlanmaqdadır. Əhdi Bağdadinin "Gülşəni-şüəra"sının Sankt-Peterburq nüsxəsi Ədəbiyyat İnstitutunun əməkdaşı Vəcihə xanım Feyzullayeva tərəfindən nəşrə hazırlanmış, ancaq çap olunmamışdır.

Azərbaycan təzkirələrinin bəziləri ayrı-ayrılıqda tədqiqata cəlb olunsa da, Azərbaycan təzkirəçilik tarixi sistemli şəkildə araşdırılmamışdır. Hətta Azərbaycan təzkirələrinin sayı belə dəqiq müəyyənləşdirilməmişdir. Bunun üçün isə ilk öncə Azərbaycan təzkirələri müəyyən olunmalı, onların əlyazmaları haqqında bilgilər əldə edilməli, bu təzkirələrə dair tədqiqatlar toplanılmalıdır. Bundan sonra Azərbaycan təzkirəçilik tarixini araşdırmaq mümkündür...

Apardığımız araşdırmalar nəticəsində Türkiyədə Osmanlı təzkirəçiliyinin nəzəriyyəsinin öyrənildiyini, təzkirəçilik tarixinin yazıldığını, təzkirələrin böyük bir qisminin elmi-tənqidi mətninin nəşr olunduğunu və təzkirəşünaslar nəslinin yetişdiyini söyləmək mümkündür.

Türkiyə təzkirəçiliyini nəzərdən keçirdikdə məlum olur ki, hələ Osmanlı dönəmində 9 şair təzkirəsi çap olunmuşdur. Bunlar Dövlətşah Səmərqəndinin "Təzkirətüş-şüəra"sının türkcəyə ixtisarla tərcüməsi, Səhi, Lətifi, Rza, Salim, Mehmed Tevfiq, Fatin, Əli Əmiri və nəhayət, Azərbaycan təzkirəçisi

Müctəhidzadənin təzkirəsi idi[2]. Cümhuriyyət dövründə isə Osmanlı təzkirələrindən 23-ü nəşr olunmuşdur.

Türkiyədə hətta təzkirələrin araşdırılmasına istiqamətlənmiş elmi konfrans da təşkil olunmuşdur. 6-8 may 2010-cu ildə Nevşehir Üniversitetində Türkiyə Respublikası Prezident Aparatının baş katibi, görkəmli təzkirəşünas alim Prof. Dr. Mustafa İsenin 60 illik yubileyinə həsr olunmuş "Uluslararası Klassik Türk Ədəbiyyatında biyoqrafiya" simpoziumu keçirilmiş və burada türk təzkirəçiliyini araşdıran tədqiqatçıların böyük bir qismi təzkirələrlə bağlı məruzələrlə çıxış etmişdir[3].

Təzkirələrlə tanışlığımın tarixçəsi Bakı Dövlət Universitetində oxuduğum illərə təsadüf edir. Magistraturada təhsil alarkən (2001-2004) mərhum biblioqraf alim Dos.Əşrəf Xələfovun rəhbərliyi ilə "XX əsr Azərbaycan təzkirəçiliyi" mövzusunu araşdırmağa başlamışdım. Təzkirələr üzərində araşdırmalar məni AMEA Əlyazmalar İnstitutuna gətirib çıxardı. "Türkdilli əlyazmaların tədqiqi" şöbəsinin müdiri Prof. Azadə Musayevadan bu mövzuda dəyərli məsləhətlər aldım və bu şöbədə əmək fəaliyyətinə başladım.

Prof. A. Musayevanın rəhbərliyi altında 2006-cı ildə tərəfimizdən "XV-XVII əsrlər türk təzkirələrinin strukturu və spesifikası (əlyazma qaynaqları əsasında)" mövzusunda namizədlik dissertasiyası müdafiə olunmuşdur. Təzkirələr üzərində apardığımız araşdırmalar iki monoqrafiya, 30-a yaxın məqalə və beynəlxalq konfranslardakı məruzələrdə öz əksini tapmışdır. Hal-hazırda isə Azərbaycan təzkirəçilik tarixi və türk təz-

---

[2] Bax: Musalı V. Türkeyede şuara tezkirelerinin neşrine dair // YOM, Türk Dünyası Kültür Dergisi, Sayı 16, İstanbul, 2009. - s. 67 – 79.

[3] Klasik Türk edebiyatında biyografi sempozyumu bildiriler kitabı. Ankara: AKMBY, 2011.

kirəçiliyinin inkişaf mərhələləri tərəfimizdən araşdırılmaqdadır.

Təzkirələrin biblioqrafiyasının hazırlanmasına gəlincə, bu işə 2002-ci ildə Prof. A. Musayevanın təşəbbüsü ilə başlamışdım.

Təzkirələr biblioqrafiyasını hazırlayarkən Şərq əlyazma kataloqlarını, əski çap kitabları kataloqlarını bir-bir nəzərdən keçirərək oradakı təzkirələri toplamışıq. Bundan başqa, jurnallar, ədəbiyyat tarixinə dair yazılmış kitablar, ensiklopediya və dissertasiyaları nəzərdən keçirmişik. Bu vəsaitin hazırlanmasında internetdə yerləşdirilmiş elektron materialların da rolu danılmazdır.

Tərəfimizdən hazırlanan biblioqrafiya bu sahədə görülmüş ilk iş deyil. Belə ki, bizə qədər Türkiyənin Ahi Evran Universitetinin müəllimi Prof. Dr. Mehmet Fatih Köksal Türkiyə təzkirələrinə dair kitab, məqalə və dissertasiyaları əhatə edən "Türkçe şuara tezkireleri üzerine yapılan çalışmalar bibliyoqgrafyası" adlı məqalə dərc etdirmişdir[4]. Bu biblioqrafiya Osmanlı təzkirələri, təzkirələrə dair məqalə və dissertasiyaları əhatə edirdi. Burada toplam 259 əsərin adı yer almışdır.

Hazırladığımız "Türk təzkirəçiliyi" biblioqrafiyasi isə əsas etibarilə Azərbaycan və Türkiyə təzkirələrini əhatə edir. Herat təzkirəçilik məktəbinin ən önəmli nümayəndələri olan Dövlətşah Səmərqəndinin və Əlişir Nəvainin təzkirələri Azərbaycan və Osmanlı təzkirələrinə örnək olduqları üçün biblioqrafiyada bu əsərlər haqqında da məlumat verməyi məqsədəuyğun hesab etmişik. Özbək ədəbiyyatında sonrakı əsrlərdə qələmə alınmış təzkirə nümunələri Azərbaycan və Türkiyə təzkirələri üzərində önəmli təsir buraxmadıqları üçün onları bib-

[4] Bax: Gazi Üniversitesi Eğitim Fakültesi Dergisi. Dr. Himmet Biray Özel Sayısı 1999, s. 544-567.

lioqrafiyaya daxil etməmişik. Çünki daha öncə qeyd etdiyimiz kimi hazırkı kitabımızın tərtib olunmasında əsas məqsəd Azərbaycan və Türkiyə təzkirələrinin əlyazmalarının, nəşrlərinin, onlara həsr olunmuş tədqiqatların haqqında sistemli şəkildə bilgi verməkdən ibarətdir. Lakin ümumtürk təzkirəçilik ənənəsinin daha zəngin olduğu şübhə doğurmur.

Biblioqrafiyada təzkirələrin əlyazmalarının, çap kitablarının, məqalələrin, dissertasiyaların, təzkirələr haqqında məlumat verən kitabların (məs. ədəbiyyat tarixləri, ensiklopediyalar və s.) biblioqrafik təsviri verilmişdir. Biblioqrafiyada materiallar dillər üzrə təqdim olunmuşdur. Əsərlərin dillər üzrə təqdimi zamanı sənəd növləri əsas götürülmüşdür.

Sonda hələ 2002-ci ildə təzkirələrin biblioqrafiyasını hazırlamaq təşəbbüsünü irəli sürmüş və məni bu işə istiqamətləndirmiş mətnşünas alim Prof. Azadə Musayevaya minnətdarlıq etməyi özümə borc bilirəm.

Bu işdə mənə dəstək olmuş AMEA Əlyazmalar İnstitutunun direktoru Prof. Məmməd Adilov cənablarına və institutun çox dəyərli kollektivinə xüsusi təşəkkürümü bildirirəm.

Dərin hörmət bəslədiyim müəllimim, əməkdar mədəniyyət işçisi Prof. Zöhrab Əliyevə, Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyevaya, BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Dos. Nadir İsmayılova təşəkkür edirəm.

Türkiyədə işıq üzü görmüş kitab və məqalələr haqqında məlumatların əldə edilməsinə köməklik göstərmiş çox dəyərli təzkirəşünaslar – Nevşehir Universitetinin rektoru Prof. Dr. Filiz Kılıça, Muğla Universitetinin Türk dili və ədəbiyyatı bölümünün müəllimi Prof. Dr. Namık Açıqgözə, Prof. Dr. Pervin Çapana, Adnan Menderes Universiteti Əski Türk ədəbiy-

yatı bölümünün müdiri Yrd. Doç. Dr. Aysun Eydurana, Osmanqazi Universitetinin müəllimi Prof. Dr. Ahmet Kartala, Nevşehir Universitetinin Türk dili və ədəbiyyatı bölümünün müdiri Yrd. Doç. Dr. Ömər Bayram və onun xanımı Yrd. Doç. Dr. Pərvanə Bayrama, Qazi Universitetinin müəllimi Yrd. Doç. Dr. Orhan Kurtoğluna, Yrd. Doç. Dr. Mustafa Tatcıya, Ahi Evren Universitetinin Türk dili və ədəbiyyatı bölümünün müəllimi Prof. Dr. Mehmet Fatih Köksala, Kocaeli Universitetinin Türk dili və ədəbiyyatı bölümünün müəllimi Doç. Dr. Gencay Zavotçuya, Giresun Universitetinin müəllimi Yrd. Doç. Dr. İsrafil Babacana dərin təşəkkürümü bildirirəm.

Təzkirələrə həsr olunmuş çoxsaylı araşdırmaların müəllifi olan mərhum müəllimim Dos. Əşrəf Xələfovu hörmətlə yad edir və ona Allahdan rəhmət diləyirəm.

İlk dəfə olaraq bu səpkidə geniş həcmli təzkirələr biblioqrafiyasının hazırlandığını diqqətə alsaq, burada gözdən qaçan məqamların olması mümkündür. Mütəxəssislərin bu amili nəzərə almalarını xahiş edir və söyləyəcəkləri irad və təkliflərə görə onlara əvvəlcədən minnətdarlığımızı bildiririk. Kitabın ədəbiyyatşünaslığımıza və təzkirəşünaslığımıza faydalı olması ümidi və arzusu ilə…

**Vüsalə Musalı**
filologiya üzrə fəlsəfə
doktoru
www.tezkire.info
tezkireshinas@gmail.com

# TÜRK XALQLARI ƏDƏBİYYATINDA TƏZKİRƏÇİLİK ƏNƏNƏSİ

**Təzkirələrin mənşəyi.** Təzkirələr orta əsrlərdən etibarən İslam Şərqində geniş yayılmış, tarixçi və ədəbiyyatçılar tərəfindən yazılan bio-biblioqrafik mənbələrdir. Təzkirələrdə əsasən din, təsəvvüf, ədəbiyyat, musiqi və başqa sahələrdə şöhrət qazanan şəxslər yad olunurdu. İslamın qəbulundan əvvəl tarixi əsərlər daxilində yer alan bu janr zaman keçdikcə müstəqil bir ədəbi növ kimi inkişaf etmişdir. Hələ XIX əsrin sonlarında ingilis şərqşünası E.C.V.Gibb «Osmanlı şeiri tarixi» adlı əsərini qələmə alarkən təzkirələrin çox qiymətli mənbə olduğunu xüsusi vurğulayırdı[5]. Müəllif bunu belə əsaslandırır ki, təzkirəçilər əksərən öz müasirləri və tanıdıqları şairlər haqqında məlumat verirdilər və bu məlumatlar daha əhəmiyyətli hesab olunurdu.

Təzkirələrin yaranma tarixi, strukturu və digər məsələlərin təhlilinə keçməzdən əvvəl, bu əsərlərin mənşəyindən danışmaq vacibdir. Belə ki, təzkirələrin mənşəyi ərəblərin «təbəqat» kitablarına qədər gedib çıxır. «Təbəqat» – təbəqə sözünün cəm şəkli olub, «təbəqələr», «qatlar» kimi mənaları ifadə edir. Ərəblər eyni nəsildən olan şəxslərin tərcümeyi-hallarını əhatə edən əsərləri, daha sonralar isə eyni dövrdə yaşayan və müəyyən sahədə şöhrət tapanlar haqqında məlumat verən

---

[5] Gibb V. Osmanlı şiir tarihi / tercüme A.Çavuşoğlu. Ankara, 1999, c.3-5, s.582.

əsərləri əsasən «təbəqat» kitabları adlandırırdılar. Ərəb təbəqat kitablarından və təzkirələrindən bəhs edərkən M. Mahmudov yazır: "Azərbaycan ərazisində yaranan ərəbdilli poeziyanın ilk nümunələri X əsrə aiddir. Şübhəsiz ki, bundan əvvəllər də Azərbaycanda şeir yazmaq təşəbbüsləri olmuşdur. Lakin bu nümunələr təzkirələrə yol tapmadığından itib-batmış, tarixin keçmiş əsrlərinin zülmətli dünyasında yox olmuşdur. İlk vaxtlarda ərəblər təbəqat kitablarında bir qəbilənin məşhurlarını xatırlayırdılar"[6]. Bu fikirlər bir daha sübut edir ki, təbəqat kitabları və təzkirələrsiz ədəbi nümunələr dövrümüzə çata bilməzdi.

Y.Çetindağ Şərqdə şair təzkirələrindən öncə antologiya və bioqrafya ənənəsinin yarandığını, bu iki qolun bir-birinə yaxınlaşması ilə təzkirətüş-şüəraların meydana çıxdığını qeyd edir. Daha sonra Şərqdə şüəra təzkirəçiliyinin Ərəblərdə yarandığı və onlarda bioqrafik əsərlərdən çox əvvəl şeir antologiyalarının tərtib olunmasına diqqəti çəkir[7].

Bu kitabların bir nümunəsi kimi Əbu Nuaym əl-İsfahaninin (?-h.430/1038) «Hilyətül-övliya» adlı səkkiz yüzə yaxın sufi və zahidin bioqrafiyasını xronologiya əsasında əhatə edən əsərini göstərmək olar[8]. Məşhur tarixçi Xətib Bağdadinin h.444/ 1052-ci ildə tamamladığı «Tarixi-Bağdad» əsəri Bağdadda yaşayan və ya buraya gələn şəxsləri – xəlifə, vəzir kimi dövlət adamları, qazı, şair və başqa sənət sahiblərindən 7831 nəfərinin həyatına dair əlifba sırası əsasında məlumat verir. O, əsərinə Məhəmməd adını daşıyanlarla başlamışdır[9]. Za-

---

[6] Mahmudov M. Piyada…Təbrizdən Şama qədər. Bakı, 1982, s.24.

[7] Çetindağ Y. Şiir ve tenkit (Türk, İran ve Türk tezkirelerinde). İstanbul, 2010, s. 1.

[8] Türer O. Ebu Nuaym el-İsfahani. DİA, X. c., İstanbul,1994, s.201-203.

[9] Kandemir Y. Hatib el-Bağdadi. DİA, c.XVI, İstanbul, 1997, s.452-454.

man ötdükcə bu əsərlər bütünlüklə şairləri, həkimləri və digər sahələrin məşhurlarını əhatə etməyə başlamışdır.

Bütünlüklə şairləri əhatə edən ilk nümunəni İbn Səllam əl-Cümahi (m. 756 - 847) ortaya qoyulmuşdur.

İbnül-Mutəz (? - m. 908) Abbasi dövründə yetişən şairlər haqqında ən mühüm məlumatı əks etdirən «Təbəqatüş-şüərail-mühdəsin»i bu janrda yazılan əsərlərdən biridir[10]. Bu əsərlərin arasında İbn Qüteybənin (? - h. 276 / 890) şeirin və şairliyin mahiyyəti haqqında dövrümüzdə belə dəyərini itirməyən fikirləri özündə əks etdirən, çox əhəmiyyətli uzun bir müqəddimədən sonra, başlanğıcdan h. III əsrin ortalarına (m. IX əsr) qədər yetişən şairlərin tərcümeyi-halına dair məlumat və əsərlərindən örnəkləri əhatə edən «Əş-şe`r vəş-şüəra» adlı əsəridir. Bu əsər iki bölmədən ibarət olub, birinci hissədə şeir janrları, ikincidə isə IX əsrin ortalarına qədər yetişən şairlər haqqında məlumat verir[11]. Əbül-Fərəc əl-İsfahaninin (?- h.356 /967) başlanğıcdan h. III əsrə qədərki dövrün ədəbiyyat tarixi üçün qiymətli bir qaynaq olan «Kitabül-əğani» adlı əsərini də xatırlamaq lazımdır. Əl-Mərzubaninin (? - h.384/994) «Mucəmüş-şüəra» adlı əsəri də bu xarakterli nümunələrdəndir.

Əs-Səalibi (? - h.429/1038) isə "Yətimətüd-dəhr" adlı əsərində özündən əvvəlki nəslin şairləri, Xarəzm, Xorasan, Sicistan və Əndəlusa qədər ölkələrə görə qruplaşdıraraq tərcümeyi-halları və əsərlərindən nümunələr verir[12].

---

[10] Çetin N. Arap. DİA, III. c., İstanbul, 1991, s.288.

[11] Yazıcı H. Küteybe. DİA. XX c., İstanbul, 1998, s. 147; Çetin N. Arap. DİA, III. c., İstanbul, 1991, s. 288.

[12] Çetin N. Arap. DİA, 3. c., İstanbul, 1991, s. 289.

Y.Çetindağ Ərəb təzkirələrinin səciyyəvi xüsusiyyətlərini aşağıdakı şəkildə sıralamışdır. Onlardan bəzilərini təqdim edirik:

1. Ərəb təzkirələrindən ilk üçü (Əl-Cümahi, İbn Qüteybə və İbnül-Mutəz) təbəqat üsuluna görə hazırlanmışdır. Ancaq Mərzubaninin "Mücəmüş-şüəra"sı ilə ilk dəfə şairlərin əlifba sırası ilə yerləşdirmə ənənəsi başlamışdır.

2. İlk Ərəb təzkirələrində əsas olan qədim şairlərdir, müasir şairlərə və ya təzkirəçinin çağdaşı olan şairlərə əsasən yer verilmir.

3. İlk ərəb təzkirləri antologiyaları xatırladır. Təzkirəçilər şairin həyatından ziyadə örnək şeirlərini vermək istəmişlər. Bu təzkirələrin əsl hədəfi unudulmağa başlayan qədim şeirlərdir.

4. Ərəb təzkirələri şair haqqında bioqrafik məlumat verərkən daha çox şairin kimliyi və soyu ilə bağlı bilgi verirdilər. Hətta bu şairlərin on beş – iyirmi nəsil əcdadlarının təsbit edildiyinə də rast gəlmək mümkündür.

5. Ərəb təzkirələrində əsasən şeir tənqidinə rast gəlinmir. Sadəcə müqəddimələrdə şeir, ya da beytlərin ədəbi yönləri haqqında bilgilər verilir.

6. Ərəb təzkirələrində müqəddimə çox önəmlidir. Məsələn, İbn Qüteybə yüz səhifəlik müqəddimə yazmışdır...[13].

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, tarixi əsərlərdə də şairlərə xüsusi yer ayrılmışdır. Məsələn, Hülakular dövrünün tarixçisi Həmdullah Mustovfi Qəzvininin h. 730/1330-cu ildə yazdığı "Tarix-i qozide" əsərinin beşinci ba-

---

[13] Çetindağ Y. Şiir ve tenkit (Türk, İran ve Arap tezkirelerinde). İstanbul, 2010, s. 20-21.

bının altıncı fəsli şairlərin tərcümeyi-hallarına həsr olunmuşdur[14].

I Şah Abbasın saray tarixçisi İsgəndər bəy Türkman «Tarix-i aləmara-yi Abbasi» əsərində I Şah Təhmasib zamanının şairlərinə xüsusi bir fəsil ayırmış, onların həyatlarını təsvir etmiş və əsərlərindən nümunələr vermişdir[15]. Əsərin birinci cildində XVI əsr tariximizə dair qiymətli bilgilərin verilməsi ilə yanaşı, Azərbaycan ədəbiyyatının həmin dövrdə yaşamış bəzi nümayəndələrinin – Şah İsmayıl Xətainin, İbrahim mirzə Cahinin, Xoca Cəlaləddin Məhəmməd Keçəçinin, Müseyib xan Şərəfəddinoğlu Təkəlünün, Şahqulu bəy Rumlunun, Qasım bəy Halətinin, Sadıq bəy Əfşarın, Xoca Əmir bəy Keçəçinin, Vüqui Təbrizinin və başqalarının yaradıcılığı haqqında da müəyyən məlumatlar yer almış və onların bəzilərinin şeirlərindən nümunələr əksini tapmışdır[16].

Gelibolulu Mustafa Alinin "Künxül-əxbar" adlı tarixi əsəri 305 nəfər şairin həyat və yaradıcılığı haqqında məlumatı əhatə etməsi baxımından dəyərlidir. Əsərin şairləri əhatə edən hissəsi ayrica kitab şəklində Prof. M.İsen tərəfindən təqdiqata cəlb olunmuşdur [17].

Təzkirə ərəb sözü olub, "xatırlamaq, anmaq" mənasını ifadə edir. "Təzkirə" termininin bir çox lüğəvi mənası vardır.

---

14 Əhməd Qolçin Məani. Tarix-e təzkireha-ye farsi. II c., Tehran, 1350, s. 549.

15 Türkman İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi. I cild / farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri: O.Ə.Əfəndiyev və N.S.Musalı). Bakı: Təhsil, 2009, 792 s.

16 Musalı N. "Tarixi-i aləmara-yi Abbasi" əsərində XVI əsr Azərbaycan ədəbiyyatı məsələləri / "Azərbaycan Dünya ədəbiyyatında" Beynəlxalq konfrans. 27 – 28 may 2011. (məruzə).

17 Ali Mustafa. Künhül-ahbarın tezkire kısmı / hazır.: Dr. M. İsen. Ankara: Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu, 1994, 396 s.

Hələ orta əsrlərdə hər hansı bir hadisəni bildirən məktuba bənzər yazılara təzkirə deyilirdi və olduqca geniş bir istifadə dairəsi vardı: rəsmi dairələrin şəhərdaxili yazışmaları, müxtəlif şəxslərin bir-birinə göndərdikləri məktub, icazə kağızları təzkirə adlandırılırdı. Osmanlı dövlət təşkilatlarında dəftərdarlıqla bağlı olub, "mali hökm" və şikayətlərə baxan məmurlara "təzkirəçi" adı verilirdi. Bundan başqa, Osmanlı dövlətində sədrəzəmin və bəzi vəzirlərin yazı işlərini aparanlara və bu vəzifə çərçivəsindəki müxtəlif toplantılarda iştirak edən şəxslərə də "təzkirəçi" deyilirdi və "birinci təzkirəçi", "ikinci təzkirəçi" və s. dərəcələrə ayrılırdı. Əsgəri xidmətdən tərxis olunmağı əks etdirən vərəqəyə, hər hansı iş üçün icazə verildiyini bildirən və hökumət tərəfindən təqdim olunan rəsmi kağıza da təzkirə adı verilirdi. Təzkirə məcazi mənada «ölüm kağızı» mənasını da ifadə edir. Məsələn: Aşıq Hüseynin qitəsindəki «təzkirə» ifadəsi bu mənanı verir:

Nişanlanıp, gitmiş idim askere,
Ne deyeyim Allahımın emrine.
Ben almadan, o yar almış tezkere,
Ne deyeyim, Allahımın emrine[18].

Hələ XV əsrdə ilk türk əsilli təzkirəçi Dövlətşah Səmərqəndi təzkirələrin mənşəyindən bəhs edərkən yazırdı: "Din alimləri keçmişdəki əsərlərlə vaqiələri bildirmək xüsusunda işlərini layiqincə yerinə yetirmişlər və peyğəmbərlərin qissələrinin qapılarını xalqa açmışlar. Məsələn, Şeyx Əttar "Təzkirətül-övliya"sında həqiqətən Musa kimi bir möcüzə göstərmişdir. Alim müvərrixlər də tarixə, qüdrət, qüvvət sahibi sultanların mənqibələrinə aid bir çox əsərlər yazaraq, cildlər ya-

---

[18] Pala İ. Türkiye gündemini işğal eden bir kelime: Tezkere. «Zaman» qəz., Türkiyə, 2003, 4 may.

ratmışlar. Eynən bunun kimi fazillər də coğrafiya və siyasət haqqında lazım olan məlumatları bildirmək üçün əsərlər və bir çox yadigarlar buraxmışlar" [19].

"Təzkirə" sözü daha çox tarixi və ədəbi termin kimi işlədilir. İslamın qəbulundan XX əsrəqədərki mədəni həyatımızda din, təsəvvüf, tarix, ədəbiyyat, musiqi və başqa sahələrin tanınmış şəxslərinin həyatlarından bəhs edən bio-biblioqrafik əsərlər təzkirə adlandırılırdı. Məsələn, "Təzkirətüş-şüəra", "Təzkireyi-xəttatin", "Təzkireyi-elmiyyə", "Təzkireyi-xəlvətiyyə", "Təzkireyi-musiqişinasan" və s. Bu əsərlərin böyük qismi müəyyən bir sahədə tanınmış şəxsləri əhatə edir və həmin məsləyin və ya sahənin adı ilə anılırdı. Aşağıda verilən sxemdə bunu aydın təsəvvür etmək olar.




**Sxem 1.1** Müxtəlif sahələrə dair təzkirələrin sxemi

Şüəra təzkirələrindən savayı, təzkirə adı daşıyan, lakin şair təzkirələrindən ciddi fərqlənən əsərlər də qələmə alınmış-

---

[19] Devletşah tezkiresi / çeviren Necati Luğal. İstanbul, 1990, s.26-27.

dır. Məsələn, Şərafəddin Əli bin İsanın (?- 430 / 1038-39) "Təzkireyi-kəhhalin" kimi tanınan əsəri göz və göz xəstəlikləri haqqında yazılmış və günümüzə qədər bu sahədə gəlib çatmış ərəbcə əsərlərdən ən genişi və qədimidir[20].

Övliyaların həyat və fəaliyyətlərindən bəhs edən əsərlərin "təzkirətül-övliya" adı ilə anılması tanınmış İran şairi Fəriddəddin Əttarın (?- h.618/1221) adı ilə bağlıdır. Tədqiqatçılar "təzkirə" kəlməsini ilk dəfə Əttarın "Təzkirətül-övliya"sında işlətdiyini yazırlar[21]. Əttardan sonra bir çox müəlliflər təzkirəni türk dilinə tərcümə etmişlər[22]. Bunlardan ən məşhuru Sinan paşaya (h.891/1486) aiddir[23].

Bəşəriyyətin fikir tarixində danılmaz rolu olmuş, dövrünün görkəmli filosofu, alimi və dövlət xadimi Nəsirəddin Tusinin mətni ərəb və fars dillərində olub "Məbdə və məad" və ya "Ağazü əncam" adları ilə də tanınan "Təzkirə" əsəri müəllifin dini-fəlsəfi görüşlərini və İslam dininin fəlsəfəsini öyrənmək üçün qiymətli qaynaqdır[24].

"Şeyx Səfi təzkirəsi" klassik Azərbaycan tərcümə ədəbiyyatının və ədəbi dil tarixinin ən dəyərli abidələrindən biridir[25].

I Şah İsmayılın oğlu Şah Təhmasib otuz beş il ardı-arası kəsilməyən savaşlardan baş açdığı zamanda, padşahlığı döv-

---

[20] Manisa İl Halk Kütüphanesi № 45 Hk 1816; Konya Bölge Yazma Eserler Kütüphanesi, Burdur İl Kütüphanesi № 15 Hk 819.
[21] Tolasa H. Tezkire. Türk ansiklopedisi. c. XXXI. İstanbul, 1982, s.162.
[22] Yenə orada, s.42-51.
[23] Sinan Paşa. Tezkiretül-evliya. Ankara, 1987, 434 s.
[24] Xacə Nəsrəddin Tusi. Təzkirə («Ağazü əncam», «Məbdə və məad»- «Başlanğıc və son»). Bakı, 2002, 70 s.
[25] Şeyx Səfi təzkirəsi («Səfvətüs-səfa»nın XVI əsr türk tərcüməsi). Bakı: 2006, 932 s.

ründə yaşadığı hadisələrdən "Təzkireyi-Şah Təhmasib" adlı əsərində bəhs etmişdir [26].

Ərəblərin əsasən "təbəqat" adı verdikləri əsərləri, iranlılar və türklər təkmilləşdirərək "təzkirə" adlandırmağa başlamışdılar.

Prof.Dr. Mustafa İsen XVI əsr Osmanlı bioqrafya ənənəsini dəyərləndirərkən 3 fərqli tərtibin qarşıya çıxdığını qeyd edir:

1. Ümumi tarixlərdə yer alan bioqrafyalar;
2. Şəqaiq, təlif, tərcümə və zeyllərində verilən bioqrafyalar;
3. Şüəra təzkirələrində yer alan bioqrafyalar[27].

Türk alimi, prof. H. Tolasa şüəra təzkirələrini ədəbiyyat tarixi baxımından yeri doldurulmayacaq yeganə qaynaq sayır[28]. Təzkirəçilər dövrlərinin şairlərinin unudulmaması və xatırlanmalarına vəsilə olmaq üçün təzkirə yazmış və ya tərtibləmişlər. Belə ki, bəzi təzkirəçilər həqiqətən təzkirə yazmış, bəziləri isə yazılan təzkirələr əsasında təzkirə tərtibləmişlər. Məsələn, XVI əsr türk təzkirəçisi Kınalızadə Həsən Çələbi təzkirə qələmə almış, həmin əsrin digər təzkirəçisi Bəyani isə bu təzkirədəki şairlər haqqındakı məlumatı qısaldaraq bir təzkirə tərtibləmişdir. Qeyd olunan bu fərqi nəzərə almaq, «yazılmışdır» və «tərtiblənmişdir» ifadələrini fərqləndirmək lazımdır.

---

[26] Şah Təhmasibin təzkirəsi / Çapa haz. Ə.Rəcəbov. Bakı: 1996, 128 s.; Xəlilova S.Ə. «Təzkireyi-Şah Təhmasib əsərində XVI əsr Azərbaycan tarixi ilə bağlı bəzi məsələlər haqqında // Azərb. SSR EA, Məruzələr, 1978, № 7, s.77-86.

[27] İsen M. Tezkireden biyografiye. İstanbul, 2010, s. 8.

[28] Tolasa H. Tezkire. Türk ansiklopedisi. c. XXXI. İstanbul, 1982, s.182.

Bəzən təzkirələrə zeyl də yazılmışdır. «Zeyl» ərəb sözü olub, «artırma, qeyd, əlavə» mənasını ifadə edir. Məsələn, Bursalı İsmayıl Bəliğ «Nuxbətül-əsar li zeyli-zübdətül-əşar» (h.1139/1727) adlı əsərini Qafzadə Faizinin «Zübdətül-əş-ar»ına (h.1031/1622) zeyl yazmışdır.

Filol.e.d. Ə. Rəsulov müasir türk sənədli nəsrinin klassik qaynaqları içərisində təzkirələrin də olduğunu vurğulayır, təzkirə hal tərcümələri ilə müasir bədii-publisistik əsərlər – bioqrafiyalar, ədəbi portretlər və oçerklər arasında ənənə və varislik bağlarının olduğunu diqqətə çatdırır[29].

**Təzkirələrin strukturu.** Təzkirələrin strukturuna gəlincə, hələ orta əsrlərdən başlayaraq təzkirələr ya təbəqə üsulu, ya əlifba prinsipi, ya da tarixi-xronoloji ardıcıllıqla yazılırdı. Çex şərqşünası Yan Ripka təzkirələrin ümumi və ya məhəlli xarakter daşıdığını, bəzən müasirləri haqqında məlumat verdiyini, bəzən isə məlumatın xronoloji ardıcıllıqla təqdim olunduğunu yazır[30]. İran almi prof. Qulamrza Sütudə təzkirələri strukturuna görə üç qrupa ayırır: ümumi təzkirələr, əsrlərə görə tərtiblənmiş təzkirələr, xüsusi (xəttat, şeyx, padşah və başqa sahələrin məşhurlarını əhatə edən) təzkirələr. Y.Bertels təzkirələrin xronoloji ardıcıllıq, coğrafi prinsip və əlifba sırası ilə verildiyini göstərir[31]. Ə. Rəsulov müəyyən yazılma üsul və qaydaları olan təzkirələrin, əsasən əlifba sırasına görə və ya ədiblərin yaşadıqları dövrə müvafiq şəkildə tərtib edildiyini yazır[32].

---

[29] Rəsulov Ə. Türk ədəbiyyatında bədii-publisistik janrların yaranması və inkişaf yolları: Filol. elm. dokt…dis. avtoref. Bakı, 2005, s.21.

[30] Рипка Я., История персидской и таджикской литературы, Москва, 1970, с. 295-296.

[31] Бертельс Е. Низами. Творческий путь поэта. Москва, 1956, с. 8.

[32] Rəsulov Ə. Türk ədəbiyyatında bədii-publisistik janrların yaranması və inkişaf yolları: Filol. elm. dokt…dis. avtoref. Bakı, 2005, s. 21.

Məsələn, Dövlətşah Səmərqəndi təzkirəsində şairləri göy qurşağına bənzədərək yeddi təbəqəyə, Əlişir Nəvai səkkiz məclisə, Sam mirzə şairləri çıxdıqları təbəqələrə görə yeddi səhifəyə, Əmin Əhməd Razi isə ölkələrə görə yeddi iqlimə ayırmışdır. Aşağıdakı sxem bunu əyani şəkildə nəzərə çatdırır:




**Sxem 1.2** Təzkirələrin tərtiblənmə prinsipinin sxemi

Türk təzkirəçiliyində əlifba prinsipinə uyğun sıralamanı ilk dəfə XVI əsr təzkirəçisi Lətifi tətbiq etmişdir. Aşıq Çələbi isə Şərq təzkirəçiliyi tarixində şairləri əbcəd hərfləri əsasında sıralayan yeganə təzkirəçidir. Digər Osmanlı təzkirəçisi Güftinin qələmə aldığı «Təşrifatüş-şüəra» adlı əsər yeganə mənzum təzkirədir.

Y.Çetindağ təzkirələrin hazırlanma metodu mövzusuna toxunarkən qeyd edir: "İdeal bir tezkirenin nasıl olması gerektiği konusunda kafa yoran tezkirecilerden birisi de Latifidir"[33]. Və sonra Lətifinin bir təzkirəçinin əməl edəcəyi məqamları sıralayır:

---

[33] Çetindağ Y. Şiir ve tenkit (Türk, İran ve Arap tezkirelerinde). İstanbul, 2010, s. 47.

təzkirəyə daxil ediləcək şairlərə xalqın və şeiri anlayanların rəğbəti;

təzkirəçinin qədim və yeni bütün əsərləri gözdən keçirməsi;

yaşlı və bilginlərlə görüşməsi;

məclis adamı olması;

incə mənalı və faydalı şeirləri seçməsi.

Təzkirələri məzmun baxımından bioqrafik əsərlər sırasına aid edən Prof. Namiq Açıqgöz bu əsərləri üslub, məna və funksiya etibarilə ədəbi əsər hesab edir[34]. Tədqiqatçı təzkirələrin quruluşu və spesifikasını öyrənərkən çox maraqlı məqamlara toxunur. Belə ki, alim təzkirələrdəki maddələrin strukturunu 3 qrupa ayırır:

1. kalliqrafik tərtib – bəzi əlyazmalarda mənzum və mənsur hissələrin qarışıq, bəzilərində isə ayrı verilməsi. Yəni nəsr hissəsini təşkil edən cümlələr bir-birinin ardınca verilir, nəzm hissəsini təşkil edən beyt, qəzəl və s. nümunələr yeni sətirdə yer alırdı. Hər hansı bir şairdən iqtibas verilərkən "və ləhu, bu dəxi" və s. ifadələrdən istifadə olunurdu.

2. kitabın quruluşu baxımından struktur – müqəddimə, əsas mətn, xatimə.

3. maddələrin müstəqil strukturu – təxəllüs, ad, məmləkət, qohumluq, təhsil, peşə, sosial mühit, əsər, lətifə, vəfatı və s. haqqında məlumatlar.

Təzkirələr əsasən ön sözlə başlayır. Burada təzkirəçi Allaha həmd, peyğəmbərə dua etdikdən sonra, sözün əhəmiyyətinə diqqət yetirir, şairlik haqqındakı fikirlərini, şairliyin uca mərtəbə olduğunu isbat etməyə çalışır. Bəzən təzkirəçilər ön sözdə əsərlərini hansı mənbələrdən istifadə edərək yazdıqları-

[34] Açıkgöz N. Tezkirelerde yapı ve yapı terminolojisi // İlmi araştırmalar, №9, İstanbul, 2000, s. 7-23.

nı və oraya daxil etdikləri şairləri necə seçdiklərini də qeyd edirdilər[35].

Təzkirəçilər onlara qədər yazılmış təzkirələri də ön sözdə xatırlayırlar. XVI əsrdə qələmə alınmış Azərbaycan və Osmanlı təzkirələrini nəzərdən keçirdikdə məlum olur ki, təzkirəçilərin əksəriyyəti Dövlətşah Səmərqəndi və Əlişir Nəvai təzkirələrini nümunə götürmüşlər.

Hər bir təzkirənin özünəməxsus yazılma səbəbi vardır. Y.Çetindağ "her tezkirenin kimi zaman kurmaca, kimi zaman da gerçek olmak üzere kaleme alınış sebebi" olduğunu qeyd edir[36]. Məsələn, Səhi bəy "Keşke Anadoluda mevcut olup şöhret bulan değerli şairlerin adına da bir kitap yazılsa ve zamanın geçmesiyle bunların adları unutulmasa diye düşündüm" deyərək təzkirəsinin yazılma səbəbini bəyan etmişdir. Lətifi, əsərini hazırlama fikrini dostu Zaifidən aldığını, Qınalızadə Həsən Çələbi isə şeirə və şairə olan sevgisiylə izah edir.

Ön sözdən sonra təzkirənin əsas hissəsi, yəni, bio-biblioqrafik məlumatları əhatə edən mətn verilir. Burada şairin adı, ləqəbi, təxəllüsü, doğulduğu, yetişdiyi, vəfat etdiyi yer, təhsili, görünüşü, əsərləri, şairin əsərini kimə ithaf etməsi, həcmi, janrı və başqa məlumatlar verilir. Məsələn, Lətifi, təzkirəsində Liqayidən bəhs edərkən yazır: "Şəhr-i İstanbuldan Sultan Səlim xan vəssaflarından, bəzzazistan səhhaflarından idi. Ol dövrdə fövt oldu. Bab-i təsəllüfdə xeyli ləffaf və halincə şair-ü vəssaf idi. Təbiət-i şeriyyəsi çəndan və pəsəndide-yi əhl-i

---

[35] Bax: Kılıç F., Macit M. Divan edebiyatında poetika denemeleri: tezkire önsözleri // Yedi iklim, 1992, s. 3, s. 28 – 33.

[36] Çetindağ Y. Şiir ve tenkit (Türk, İran ve Arap tezkirelerinde). İstanbul, 2010, s. 43.

irfan degüldi. Şani əcayibdən və şeiri qərayibdən idi. Bu mətlə anun əşarundandur:

Tir-i qəmzən ya qaşundan yadigarumdur bənüm,
Saklarum sinəmdə anı razdarumdur bənüm.

Nəsr: Qərabət bundadır ki, bu təbiət-i qəribə birlə Əhmədinin "Yusif ü Züleyxa"sına nəzirə dimişdür. Bəlki nəzirə yüzindən nakizə dimişdür. Ayıbını hünər zənn idüb ol xaqan-i səid və xan-i şəhidə, ani Sultan Bayəzidə həzar sürur-u qürur ilə sunduqda ənbiya mənaqibidür diyü bi-təəmmül təfaül qılacaq üxüvvət-i Yusif haqqında bu beyt gəlür.

Yusufun qardaşları ol qövm-i şum,
Ana zülm eylədi qövm-i zülum.

Vəqtəkim ol şah-i fəsih bu xətayi-sarihi gördükdə ol kitabı na-savab görüb ihrak əmr etdi. Və əhli olmayan bu günə əmr-i müəzzəma mübaşərət itməsün didi.

Hər işün ma-hasal əhli gərək ey can əhli.

Səfayi nam şair Liqayiyə xəbər göndərüb ol diyarda bizüm divanumuzun yaran beynində fil-cümlə şöhrəti və şeirşünaslar miyanında qəbula qərin olacaq xəyyiz-ü rəğbəti varmı diyü sual idəcək mərhum Liqayi dəxi bu qitəyi cavab göndərmiş.
Qite-yi Liqayi:

Sizün divanunuz dastan olubdur,
Şəhirli-köylü okur, şöhrəti var.
Gözi ahularun vəsfiylə şimdi,
Gəyük dastanı dənlü rəğbəti var.

Cəvab-i Səfayi:

Sənün gibi diyəydüm şeiri bən də,

Məzə olur ilə şöhrət bulurdı.
Əgər əvsafını divana yazsam,
Gəyük dastanı ol vəqtin olurdı”[37]

Təzkirələrdə bir və ya bir neçə şair deyil, bir və ya daha çox əsrin şairlərindən bəhs olunduğu üçün, hər şair haqqında eyni dəyər və ölçüdə məlumat vermək qeyri-mümkün idi. Bunu doğuran bir neçə səbəb var idi. Belə ki, bir çox hallarda təzkirələr yüzlərlə şairi əhatə edirdi və o dövrdə məlumat toplama imkanları da məhdud idi. Bunlardan əlavə, təzkirəçilər öz dövrlərinin ədəbiyyat tarixçilərindən çox, ədəbiyyat tənqidçiləri hesab olunurdular. Onlar öz zövqlərinə görə şairi və əsərini seçir və təzkirələrinə daxil edirdilər. Bu zaman təzkirəçinin subyektiv dəyərləndirməsinə görə şairin məşhur və ya az tanınmış olması nəzərə alınır, bəzi ədiblərin əsərlərindən nümunələr verildiyi halda, digərlərindən belə örnəklərin verilməsi “yaddan çıxırdı”. Təzkirələrdəki bu xüsusa toxunan H. Tolasa yazır: “Şairlerin gerek tezkireye alınışlarında, gerekse eser ve ya şiirlerinden verilen örneklerde bir seçme durumunun sözkonusu olduğunu ve çeşitli etkenlerin rol oynamasına rağmen bu seçimin tezkirecinin zevk ve tercihine dayandığını da bu arada belirtmiş olalım”[38]. Buraya təzkirəçilərin qabiliyyət fərqlərini, şairə zaman və mühit baxımından yaxınlıq və uzaqlığını da əlavə etmək lazımdır.

Təzkirələrin sonunda isə əsərin yekun bölməsi olan “xatimə” verilir. Xatimədə təzkirəçi əsərini yazarkən qarşılaşdığı

---

[37] Latifi. Tezkiretüş-şuara ve Tabsıratün-nuzama (İnceleme-metin). - Ankara, 2000, s. 492.
[38] Tolasa H. Sehi, Latifi, Aşık Çelebi tezkirelerine göre 16. yüzyılda edebiyat araşdırma ve eleştirisi. İzmir, 1983, s.VIII.

çətinliklərdən bəhs edir və əsərinin uğur qazanması, bəyənilməsi üçün Allaha yalvarır.

Türk alimi S. Solmaz təzkirələri təhlil edərkən yazır: "Tezkireler manzum ve mensur karışık eserlerdir. Nesir kısmı tamamen müellife aitdir. Manzum kısmında ise yazar genellikle eserine aldığı şairlerin şiirlerinden örnek verdikden sonra yer yer bir fırsat bularak kendi şiirlerini de esere katmaktadır"[39]. Qeyd etməliyik ki, həqiqətən, bəzən təzkirəçilər öz şeirlərindən bir misra, beyt, qitə, məsnəvi və ya nəzirələrini təzkirələrinə əlavə edirdilər.

**İran təzkirəçiliyi.** Şərqdə təzkirəçilik ənənəsinə gəlincə, tarix kitablarında və lüğətlərdə şairlərdən bəhs edən iranlı müəlliflər içərisində təzkirə xarakterli ilk əsərin müəllifi Nizami Əruzidir (?- h. 552 / 1157). Onun qələmə aldığı "Məcmuəün-nəvadir" adlı əsər dörd bölmədən ibarət olduğu üçün "Çəhar məqalə" adı ilə məşhurlaşmışdır. Əruzi əsərində dövrünün münşi, şair, münəccim və təbiblərindən bəhs etmiş və bu sahələrə aid hekayələr nəql etmişdir. Ümumilikdə "Çəhar məqalə"də qırx hekayə verilmişdir. Müəllif əsərinin ön sözündə "Çəhar məqalə"ni Əbül Həsən Hüsaməddin adlı bir şahzadə üçün yazdığını bildirir. Əsərin birinci məqaləsində katiblik və bu sahənin xüsusiyyətlərindən, ikincidə öncə şeir və şairlə bağlı məlumatlar verildikdən sonra, şeirin insana təsiri, xüsusilə hökmdarların adlarının unudulmamasını təmin etməsi baxımından əhəmiyyətindən bəhs edir. Üçüncü məqalə astronomiyaya ayrılmışdır. Dördüncü məqalədə isə tibb elmindən danışılmışdır [40].

---

[39] Ahdi ve Gülşen-i şuarası (İnceleme-metin). Ankara, 2005, s.15.

[40] Низами Арузи. Собрание редкостей или четыре беседы. Москва, 1963, 173 с.

İran ədəbiyyatında həqiqi mənada ilk şüəra təzkirəsini Məhəmməd Övfi (?- h.629 / 1232) yazmışdır. Belə ki, XIII əsrin ilk onilliklərində şöhrət qazanmış İran ədibi Övfi "Lübabül-əlbab" adlı təzkirə yazaraq h. 618 / 1221-ci ildə Eynülmülk Fəxrəddin Hüseynə təqdim etmişdir. Bu əsər İslamın qəbulundan sonrakı dövrün əsasən iranlı şairlərini əhatə edən «təzkirətüş-şüəra» olması baxımından böyük əhəmiyyət kəsb edir. Təzkirə 300-ə yaxın şairin tərcümeyi-halı və əsərlərindən nümunələri əhatə edir. Bir müqəddimə və on iki babdan ibarət olan əsərdə şeirin fəzilətindən, ümumiyyətlə şeirin və İran poeziyasının başlanğıcından bəhs edildikdən sonra, şeir yazan hökmdarlar, dövlət adamları və alimlər haqqında məlumat verilmişdir. Səkkizinci babdan başlayaraq Tahirilər, Samanilər, Qəznəvilər və Səlcuqlar dövründə, son iki babda isə Səncər dövrünün sonundan müəllifin dövrünə qədər şöhrət qazanmış şairlərdən bəhs edilmişdir. Ancaq Dövlətşah Səmərqəndi təzkirəsinin müqəddiməsində bu əsərin mövcudluğu barədə heç bir məlumat verməmişdir. Bundan əlavə, Seyid Əli bin Mahmud əl-Hüseyni «Bəzm-aray» adlı şairlər təzkirəsində, demək olar ki, bütünlüklə «Lübabül-əlbab»dan istifadə etməsinə baxmayaraq, əsərində Övfinin adını belə çəkməmişdir. Türk alimi F. Köprülü Övfinin bu əsərini Səffarilər, Səmanilər və Səlcuqlar dövründə yetişən bir çox şair və alimlər haqqında yeganə qaynaq hesab edir[41].

Övfidən sonra Əbdürrəhman Cami (?-h.898/1492) «Baharistan» adlı əsərini qələmə almışdır. Bu əsər giriş, səkkiz rövzə və xatimədən ibarətdir. Əsərin yalnız yeddinci fəslində şairlərdən bəhs olunmuşdur.

---

[41] Köprülü F. Avfi. İA. II c., İstanbul, 1970, s.23.

XVI əsrin sonlarında qələmə alınmış qiymətli bir təzkirə Əmin Əhməd Razinin «Həft iqlim» adlı əsəridir. Razi ona şöhrət qazandıran bu əsərini h.996/1588-ci ildə Hindistanda yazmağa başlamış, h.1002/1594-cü ildə tamamlamışdır. «Həft iqlim» yeddi coğrafi bölgə əsasında hazırlanmışdır. Hər bölmə öz daxilində ölkələrə və şəhərlərə ayrılır. Hər bir vilayətin, ölkənin tarix və coğrafiyası haqqında məlumat verən girişdən sonra, orada yetişən böyük şəxsiyyətlərdən bəhs edilir. Bu təzkirənin dördüncü iqlimində Azərbaycanın cənub vilayətləri, beşinci iqlimində Şirvan, Gəncə haqqında məlumat verilmişdir. Təzkirədə ümumilikdə 1560 şair, alim, əmir və hökmdarlardan bəhs olunmuş, əsərlərindən nümunələr yer almışdır[42].

Apardığımız araşdırmalar nəticəsində məlum olmuşdur ki, Şərqdə ən çox təzkirə nümunələri İranda yaradılmış və orada təzkirəçilik ənənəsi indiyədək davam etməkdədir. Bu günə qədər iranlı təzkirəçilər təqribən 400-ə yaxın təzkirə qələmə almışlar. Məşhur İran alimi Əhməd Gülçin Məani özünün «Tarixi-təzkirəhayi-farsi» adlı iki cildli, sanballı tədqiqatında fars dilində qələmə alınmış, demək olar ki, bütün təzkirələrdən bəhs etməklə farsdilli təzkirəçiliyin tarixini yaratmışdır[43].

**Herat təzkirəçilik məktəbi**. Herat təzkirəçilik məktəbinin ilk nümunəsini XV əsrdə Əmir Dövlətşah Səmərqəndi yaratmışdır. Teymurilər dövründə böyük nüfuz qazanmış aristokrat bir türk ailəsinə mənsub olduğu üçün Əmir ləqəbini daşıyan Dövlətşah, Şahrux zamanının ən qüdrətli şəxsiyyətlərindən biri olub uzun müddət əmirülüməralıq (bəylərbəyi- V.M.)

---

[42] Bertels E. Razi Amin Ahmet. İA. 9.c., İstanbul, 1964, s.545.;

[43] Əhməd Qolçin Məani. Tarix-e təzkireha-ye farsi. c.I-II. Tehran, 1350, 1029 s.

vəzifəsində çalışan böyük əmir Cəlaləddin Firuzşahın əmisi oğlu Əmir Əlaüddövlə İsfərayinin oğludur. Orta əsrlərin bir sıra türk dövlətlərində olduğu kimi, Teymurilər dövlətində də əmir titulu yalnız türk tayfa əyanlarına verilən mənsəb idi.

Ədəbiyyat bilicisi və şair olan Dövlətşah Səmərqəndiyə şöhrət gətirən əsəri h.892/1487-ci ildə tamamladığı «Təzkirətüş-şüəra»sıdır. Dövlətşahın «Təzkirətüş-şüəra»sı Şərq xalqlarının klassik ədəbiyyatını, o cümlədən də orta əsrlər Azərbaycan ədəbiyyatı tarixini araşdıran mütəxəssislərin dönə-dönə istinad etdikləri ilkin mənbələrdən biridir.

Dövlətşah təzkirəsinin yazılma səbəbindən bəhs edərkən qeyd edir: «Mən həyatım boyunca gördüklərimi, böyüklərin xırmanından topladıqlarımı, etibar görən tarixlərdən, keçmişdəki ustaların divanlarından, öncə və sonra gələnlərin şeirlərindən, müxtəlif risalələrdən, siyər kitablarından, şeirləri hər bir ölkədə tanınan və anılan böyük şairlərin tərcümeyi-halına aid məlumatlardan bir qismini bu təzkirəyə topladım»[44].

Təzkirə bir müqəddimə, yeddi təbəqə və xatimədən ibarət olub, Əlişir Nəvaiyə həsr edilmişdir. Təzkirənin müqəddiməsində Dövlətşah Allaha həmd etdikdən sonra, insanın yaradılmasından bəhs edir. Daha sonra peyğəmbəri və dörd xəlifəni, Hüseyn Bayqaranı tərif edir. Mədhiyyələr bitdikdən sonra Dövlətşah şeir və poeziya haqqında məlumat verir. Müəllif müqəddimədə əsərin strukturundan da bəhs edir: «Bu kitabı göylər kimi yeddi təbəqəyə ayırdım. Bunun hər təbəqəsində təxminən iyirmiyə qədər fazildən bəhs olunmaqdadır. Bundan başqa bu təbəqələrə bəzi ərəb şairlərinin həyatlarından bəhs edən bir müqəddimə və bu gün şərəfli şəxsiyyətləri ilə

---

[44] Девлетшащ тезкиреси / чевирен Неъати Луьал. Истанбул, 1990, с.28.

cahanı bəzəyən fazil və şairlərə dair bir xatimə əlavə etdim»[45]. Dövlətşah əsərini hansı prinsip əsasında yazdığını qeyd etməmişdir. Ancaq təzkirəni araşdırdıqda məlum olur ki, müəllif şairlər haqqındakı məlumatı xronoloji prinsip əsasında verməyə çalışmışdır.

Dövlətşah şairlərin mühitlərini təsvir etmək üçün bəzən tarixi təfsilata da yer vermişdir. Əsərin ən mühüm qismini XV əsrdə yaşamış şairlər haqqındakı məlumat təşkil edir.

Dövlətşah Səmərqəndinin təzkirəsi Şərqdə geniş yayılsa da, mütəxəssislər göstərirlər ki, bu əsərdə təhrif olunmuş faktlar çoxdur və ya həddindən artıq şişirdilmiş məlumatlar vardır. Fuad Köprülü Dövlətşah təzkirəsinin qiymətli əsər olduğunu vurğulayır, fəqət bu əsərdə ara-sıra çox böyük tarixi yanlışlıqlara rast gəlindiyi də qeyd edir[46].

Əlişir Nəvai tərəfindən qələmə alınan “Məcalisün-nəfais” h.903-cü ildə tamamlanmışdır. «Məcalisün-nəfais» müqəddimə, səkkiz fəsil və xatimədən ibarətdir. «Məcalisün–nəfais»i təşkil edən 8 təbəqədə daha çox Herat, Xorasan və Azərbaycanda yaşayan təxminən 469 nəfər şair yer almışdır. Bunlardan 46-sı türk və ya türkcə şeir söyləyənlərdir. Nəvai demək olar ki, heç bir şairin təvəllüd tarixini verməmişdir. Nadir hallarda şairlərin ölüm tarixi və ya kimin dövründə yaşadığı qeyd olunur.

Dövlətşah Səmərqəndi və Əlişir Nəvai tərəfindən qələmə alınan və «Herat təzkirəçilik məktəbi» nümunələri kimi anılan bu əsərlər Türkiyə və Azərbaycan təzkirələrinin yazılmasına böyük təsir göstərmişlər.

**Azərbaycan təzkirəçiliyi.** Azərbaycan təzkirəçilik tarixini araşdırdıqda azərbaycanlı təzkirəçilərin də çox sayda əsərlər

---

[45] Devletşah tezkiresi / çeviren Necati Luğal. İstanbul, 1990, s.32.
[46] Köprülü F. Devletşah. İA. 3. c., İstanbul, 1971, s. 36.

qələmə aldığı məlum olur. Azərbaycan ərazisində qələmə alınmış ilk təzkirə Qəribinin "Təzkireyi-Qəribi"sidir. Təzkirə təqribən 1524-cü ildə qələmə alınmışdır. Cəmi 12 vərəqdən ibarət olan bu təzkirədə 54 şair haqqında məlumat verilir[47].

İlk Azərbaycan təzkirəsi Şah İsmayıl Xətainin oğlu Sam mirzə Səfəvi tərəfindən farsca qələmə alınmışdır. Şeirlərini Sami təxəllüsü ilə yazan Səfəvi şahzadəsinin ən mühüm əsəri "Töhfeyi-Sami" adlı təzkirəsidir. Təzkirə ilə tanış olan ingilis şərqşünası E. Broun əsərin təcili çap olunmasının vacibliyini yazır[48]. "Töhfeyi-Sami"nin nə vaxt, harada yazılması haqda təzkirəçinin özünün qeydi yoxdur. Bir çox tədqiqatçılar əsərin h.957/1550 - h.968 /1561-ci illər arasında tərtib olunduğunu yazırlar[49]. Buradan belə qənaətə gəlmək olar ki, əsər Sam mirzə Ərdəbildə hakim olarkən qələmə alınmışdır. Təzkirə müqəddimə, "səhifə" adı verilən yeddi fəsil və xatimədən ibarətdir. "Töhfeyi-Sami"nin birinci fəsli şah nəslindən olan şairlərə, ikinci fəsli seyyid və alim nəslindən olan şairlərə, üçüncü fəsil peşəkar şair olmayıb, bəzən şeir söyləyənlərə, dördüncü fəsil vəzirlər və şeir yazan başqa qələm sahiblərinə, beşinci fəsil əsl şairlər və yüksək qələm sahiblərinə, altıncı fəsil türk təbəqəsi və onların ən böyük şairlərinə, yeddinci fəsil isə xalq təbəqəsindən olan digər şairlərə ayrılmışdır.

XVI əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Əhdi Bağdadi Azərbaycan türkcəsində qələmə

---

[47] Bax: Babacan İ. Tezkire-i mecâlis-i şu'arâ-yi Rum - Garîbî Tezkiresi. - Ankara: Ankara Vizyon Yayınevi, 2010.

[48] A desccriptive catalogue of the arabic, persian and urdu manuscripts in the library of the University of Bombay. Bombay, 1935, p.41.

[49] Əhməd Qolçin Məani. Tarixe təzkireha-ye farsi. Celdi əvvəl. Tehran, 1350, s.155.

aldığı «Gülşəni-şüəra» təzkirəsi ilə məşhurlaşmışdır. Təzkirə XVI əsrdə Bağdad ədəbi mühitinin yetişdirdiyi azərbaycanlı şair və alimləri - Şəmsi, Hüsni, Rindi, Zöhdi, Muradi, Hüzni, Fəzli, Elmi, Kəlayi, Zaeyi və başqalarının həyat və yaradıcılığı haqqında ilkin məlumatlar verdiyi üçün böyük əhəmiyyət kəsb edir. Türk təzkirəçilik tarixini araşdırdıqda məlum olur ki, Azərbaycan dilində ilk şüəra təzkirəsini Əhdi Bağdadi yazmışdır. Tarixçi Mustafa Ali «Künhül-əxbar»ında Əhdinin azərbaycanlı olduğunu xüsusi vurğulayır: «…hətta bir zaman əcəmiliyini bilmədi. Əcəmiliyi halında şüəra-yi Rum təzkirəsini yazmağa meyilləndi»[50].

Əhdi təzkirəsini h.971/1563-64-cü ildə tamamlamışdır. Müəllif bu tarixdə yazdığı təzkirəsini üç rövzəyə ayırmışdır. Təzkirəçi sonralar əsəri yenidən gözdən keçirərək h.1001-ci ilə qədər yetişmiş şairlər haqqında topladığı məlumatları əlavə edərək, təzkirəsinə bir rövzə də artırmışdır. Beləliklə, «Gülşəni-şüəra»nın ilk variantı müqəddimə, üç rövzə və bir xatimədən ibarətdir. Təzkirənin tam nüsxəsi isə dörd rövzədir. İlkin variantda təzkirədə Qanuni dövrü şairlərindən bəhs olunmuşdursa, əlavələr zamanı əsərdə II Səlim və III Murad dövrü şairləri də xatırlanmışdır[51].

I Şah İsmayılın nəvəsi İbrahim mirzənin "Fərhəngi-İbrahim" adlı təzkirə qələmə alması mənbələrdə qeyd olunmuşdur. Ancaq əsər dövrümüzə gəlib çatmamışdır.

XVII əsrdə Azərbaycan təzkirələçiliyinə yeganə nümunəni Sadıq bəy Sadiqi vermişdir. Görkəmli Azərbaycan şairi, xəttatı, rəssam-nəqqaşı, musiqişünası olan Sadıq bəy Əfşar XVII

---

[50] İsen M. Mustafa Ali, Künhül-ahbarın tezkire kısmı. – Ankara: Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu, 1994, s. 319.

[51] Ahdi ve Gülşen-i şuarası (İnceleme-metin), (Haz.: S. Solmaz): Ankara 2005.

əsrin ilk azərbaycanlı təzkirəçisidir. "Məcməül-xəvas"ın yazılma ili məlum olmasa da, tədqiqatçılar bu tarixi təxmini olaraq 1607-1608-ci ilə təsadüf etdiyini müəyyənləşdirmişlər[52]. Təzkirə ön söz, səkkiz "məcmə" və xatimədən ibarətdir.

XVI-XVII əsrlər Azərbaycan təzkirəçiliyini araşdırdıqda məlum olur ki, Sam mirzə və Sadıq bəy Sadiqinin qələmə aldıqları təzkirələr struktur baxımından Herat təzkirələrini xatırladır. Əhdi «Gülşəni-şüəra»sı isə daha çox Osmanlı təzkirələrinin təsiri altında yazılmışdır.

XVIII əsrin ilk Azərbaycan təzkirəçisi Səfəvilər sülaləsinə mənsub olan Əliqulu xan Valeh Dağıstanidir (h.1124/1712-h.1170/1765). Valeh Dağıstani Hindistanda olarkən Aqra, Dehli, Cahanşahabad, Lahor və başqa şəhərləri gəzmiş, materiallar toplamış və h.1160/1747-ci ildə "Riyazüş-şüəra" adlı təzkirəsini tamamlamışdır. Əsər fars dilində qələmə alınmışdır. Təzkirəçinin həyatı haqqında ən dəqiq və ətraflı məlumatı "Riyazüş-şüəra"nın sonundan alırıq. Bu təzkirədə 2540 şair haqqında məlumat təxəllüslərinə görə əlifba sırası ilə verilmişdir. Əsərin müqəddiməsindən aydın olur ki, bu təzkirəni yazmaqda təzkirəçinin məqsədi az tanınan və ya unudulmuş şairlərin adlarını əbədiləşdirmək olmuşdur. Təzkirədə yüzdən artıq azərbaycanlı şair haqqında məlumat verilir. Burada Nizami, Xaqani, Əbülüla Gəncəvi, Nəsimi, Saib Təbrizi və başqa məşhurlarla yanaşı, Heydəri Təbrizi, Bəxşi Təbrizi, Cəfər Təbrizi, Həqiri Təbrizi, Məhvi Ərdəbili və başqa anılma-

---

[52] Kəndli-Herisçi Q. Sadıq bəy Sadiqinin həyat və yaradıcılığı haqqında bəzi qeydlər // Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: 1964, s. 233; Levend A.S. Türk edebiyyatı tarihi. Ankara, 1984, s. 257; İsen M., Kılıc F., Aksoyak İ., Eyduran A. Şair tezkireleri, Ankara, 2002, s. 78; Kılıç F. XVII. yüzyıl tezkirelerinde şair ve eser üzerine değerlendirmeler. - Ankara, 1998, s. XXX.

mış şairlər də xatırlanmışdır. Valeh Dağıstani əsərini yazarkən Dövlətşahın, Nəvainin, Sam mirzənin təzkirələrindən istifadə etmiş və sözügedən mənbələrdəki məlumatları sadəcə köçürməmiş, oradakı yanlışlıqları düzəltmişdir[53].

Azərbaycan alimi və şairi Lütfəli bəy Azər Bəydilinin qələmə aldığı "Atəşkədə" XVIII əsrin digər təzkirə nümunəsidir. Təzkirə 1760-1779-cu illərdə qələmə alınmışdır. "Atəşkədə» İran, Orta Asiya, Azərbaycan və Hindistanda yaşayan 842 şairi əhatə edir[54].

Fətəli şah Qacarın nəvəsi, Naibüs-səltənə Abbas mirzənin oğlu  olan Bəhmən mirzə 1842-ci ildən 1848-ci ilə qədər Cənubi Azərbaycana hakimlik etmişdir. Bəhmən mirzədən bəhs edən müəlliflər onun iki əsərini xatırlayırlar. Bunlardan birincisi "Şükürnameyi-şahənşahi", ikincisi isə "Təzkireyi-Məhəmmədşahi"dir. Belə ki, Bəhmən mirzə qardaşı Məhəmməd şahın xahişi ilə 1831-ci ildə təzkirəsini yazmışdır. Təzkirə üç riştədən ibarət olub, əlifba prinsipi ilə hazırlanmışdır. Birinci hissə "mütəqəddimlər"ə[*] ayrılmışdır. Burada 123 şairdən bəhs olunmuşdur. İkinci hissə şahzadələr, görkəmli tacirlər və əmirlərə həsr edilmişdir. Üçüncü hissədə təzkirəçinin müasiri olan şairlər xatırlanmışdır[55]. F.e.n. T. Nurəliyeva Bəhmən mirzənin kolleksiyasından bəhs edərkən təzkirəsinin AMEA Əlyazmalar İnstitutundakı nüsxəsi haqqında məlumat verir və əhəmiyyətini vurğulayır: «…Əlyazma yalnız məşhur şair və

---

[53] Qəhrəmanov C. Valeh Dağıstani və onun "Riyazüş-şüəra" əsəri / "Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1982, 17 sentyabr.

[54] Bax: Məmmədova M. Lütfəli bəy Azər və Azərbaycan ədəbiyyatı. Bakı, 2001, 139 s.

[*] Mütəqəddim – "öndə gedən", "irəlidə gedən" və ya "keçmiş", "əvvəlki" mənalarını ifadə edir.

[55] Bəhmən mirzə Qacar. Təzkireyi Məhəmmədşahi. Əlyazmalar İnstitutu, M - 24.

ədiblər haqqında qısa məlumat vermək baxımından deyil, eyni zamanda Azərbaycan paleoqrafiyasının, rəssamlıq sənətinin, onun tarixinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir» [56].

XIX - XX əsrlərdə Azərbaycan təzkirəçiliyinin inkişafında özünəməxsus, xüsusi cəhətlərin formalaşdığı, yeni mərhələnin başladığı nəzərə çarpır. Belə ki, bu dövrdə Məhəmmədəli Tərbiyət və Qulam Məmmədli dövr məhdudiyyəti qoymadan, bir çox sahələrdə məşhur olan şəxslər haqqında məlumatı toplayaraq universal xarakterli, Mir Möhsün Nəvvab və Məhəmməd ağa Müctəhidzadə ərazi prinsipini əsas götürərək bir növ məhəlli, Ziyai təzkirəçilik və zeyl ənənəsini birləşdirərək fərdi istiqamətdə təzkirə tərtib etmişlər. F.e.n. A. Hacıyeva XIX əsr Azərbaycan təzkirəçiliyinin səciyyəvi xüsusiyyətlərindən söz açararkən «həmin dövr təzkirələri, əsasən, məhəlli səciyyə daşıyaraq az zaman fərqi ilə tərtibçinin yaşadığı ərazinin sakini olmuş ədiblərin yaradıcılığı haqqında məlumatları əhatə etdiyini» yazır[57].

"Məclisi-üns" üzvlərindən olan Həsənəli xan Qaradaği (1850-1929) "Təzkireyi-Qaradaği" adlı təzkirə qələmə almışdır. Akademik F. Qasımzadə XIX əsr Azərbaycan ədəbiyyatı tarixindən bəhs edərəkən bu təzkirənin adını çəkir[58].

Seyid Əzim Şirvaninin 1882-ci ildə tərtib etdiyi "Təzkirə" dibaçə, müqəddimə və dörd fəsildən ibarətdir. Təzkirəçi əsərinin strukturunu belə açıqlayır: "Bu məcmuə dörd fəsil üzrə,

---

[56] Nurəliyeva T. Azərbaycan ədəbiyyatının tədqiqində əlyazma kolleksiyalarının əhəmiyyəti. Bakı, 1998, 80 s.

[57] Hacıyeva A. Mir Möhsün Nəvvabın ədəbi-bədii irsi. Bakı, 2004, s.49.

[58] Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1974, s.50.

hər fəsil üç bürc otuz dərəcə üzrə bəyan olunmuşdur"[59]. Təzkirə 280-ə yaxın şairin həyat və yaradıcılığını əhatə edir. Sözügedən əsər türkiyəli ədəbiyyatşünas Ö. Bayram tərəfindən geniş şəkildə tədqiqata cəlb olunmuşdur[60].

XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşayıb-yaratmış Ziyai İsa ibn Məhəmməd Sərraf da təzkirə tərtibləmişdir. "Təzkireyi-Ziyai" adlı bu əsərin birinci hissəsini Lütfəli bəy Azərin "Atəşkədə" təzkirəsini, ikinci hissəsi isə müəllifin müasirlərini əhatə edir. Əsər farsca qələmə alınmışdır.

Mir Möhsün Nəvvab tərəfindən 1891-ci ildə fars dilində qələmə alınan "Təzkireyi-Nəvvab" iki hissədən ibarət olub, məhəlli xarakter daşıyır və müəyyən mənada sistemsiz tərtib olunmuşdur. Birinci hissədə təzkirə tərtib olunan zaman vəfat etmiş 35 şair, ikinci hissədə isə həyatda olan 56 şairdən bəhs edilir. "Təzkireyi-Nəvvab"ın spesifik cəhəti də vardır ki, bu da indiyədək təzkirələrin heç birində rast gəlmədiyimiz avtoqraf toplamaqdır. Belə ki, müəllif təzkirəni yazarkən bir çox şairləri yanına dəvət etmiş və şeirlərini xatirə olaraq, avtoqraf kimi həmin kitaba yazdırmışdır. Təzkirə Qarabağ şairlərinin həyat və yaradıcılığını əhatə edir.

Məhəmməd ağa Müctəhidzadənin tərtiblədiyi "Riyazül-aşiqin" təzkirəsi Qarabağda yaşayan 78 şairdən bəhs edir. Təzkirə iki hissədən ibarətdir. Birinci hissədə təzkirə tərtiblənərkən dünyasını dəyişmiş şairlərdən bəhs edilmişdir. İkinci hissədə isə müəllifin müasiri olan ədiblər və onların əsərlərindən nümunələr verilmişdir. Əsər hələ müəllifin sağlığında 1910-cu ildə İstanbulda, 1995-ci ildə isə ərəb əlifbasından çevrilərək Bakıda nəşr olunmuşdur. Sədi Çögənli və Rəcəb To-

---

[59] Seyid Əzim Şirvani. Seçilmiş əsərləri. III c., Bakı: 1974, 448 s.

[60] Bayram Ö. Azerbaycan sahası tezkireleri ve Seyid Azim Şirvaninin tezkiresi. Doktora tezi. Ankara, 2005. XCIX+519 s.

parlı isə təzkirənin 1910-cu il nəşrini, ön söz əlavə olunmaqla 1992-ci ildə Ərzurumda çap etdirmişlər. A. Topalova Müctəhidzadə təzkirəsini namizədlik dissertasiyası səviyyəsində tədqiqat obyektinə çevirmişdir[61].

Məhəmmədəli Tərbiyətin əlifba prinsipi əsasında hazırladığı «Danişməndani-Azərbaycan» 1935-ci ildə Tehranda nəşr olunmuşdur. Tərbiyətin uzun illər apardığı araşdırmaların nəticəsi olan bu təzkirədə Azərbaycanın tanınmış şair, yazıçı, filosof və təbiblərin  həyatı haqqında məlumat verilmiş və əsərlərindən nümunələr təqdim olunmuşdur. «Danişməndani-Azərbaycan»ı təzkirələr təzkirəsi hesab etmək olar. Çünki Məhəmmədəli Tərbiyət əsərini hazırlayarkən bir sıra dəyərli təzkirələrdən bəhrələnmiş və demək olar ki, təzkirədəki məlumatların çoxunu olduğu şəkildə vermişdir (Məsələn, Sam mirzə təzkirəsi, Sadiqi təzkirəsi, Nəsrəbadi təzkirəsi və s.). Bu əsər Qafar Kəndli və İsmayıl Şəms tərəfindən fars dilindən Azərbaycan dilinə tərcümə edilmişdir[62]. K. Məmmədova «Danişməndani-Azərbaycan» təzkirəsini namizədlik dissertasiyası səviyyəsində tədqiqata cəlb etmişdir[63].

Səadət mədrəsəsinin müdərrisi olan Hacı Şıxəli Feyzullazadə tərəfindən «Təzkirətül-övliya» adlı əsər tərtibləmiş və 1917-ci ildə «Açıq söz» qəzetinin elektrik mətbəəsində çap olunmuşdur. 61 səhifə həcmində olan təzkirədə Məhəmməd peyğəmbər və on iki imamın tərcümeyi-halı verilmişdir.

---

[61] Topalova A. Ədəbiyyat tarixinin öyrənilməsində təzkirələrin rolu və Ağa Məhəmməd Müctəhidzadənin «Riyazül-aşiqin» təzkirəsi. Bakı, 2001, 97 s.

[62] Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan: Azərbaycanın görkəmli elm, sənət adamları Bakı, 1987, 464 s.

[63] Məmmmədova K. Azərbaycanda təzkirəçilik ənənəsi və Məhəmmədəli Tərbiyətin «Danişməndani-Azərbaycan» təzkirəsi: Filol. elm. nam…dis. avtoref. Bakı, 2005, 30 s.

XX əsrdə tərtib olunmuş təzkirələr sırasına İbrahim Tahir Musayevin 1918-ci ildə qələmə aldığı «Riyazül-arifin» təzkirəsi daxildir. Əsər Rzaqulu xan Hidayətin «Məcməül-füsəha»sının, demək olar ki, Azərbaycan dilinə qısa tərcüməsidir. Azərb. MEA Əlyazmalar İnstitutunda D-207 şifrəsi altında mühafizə olunan təzkirənin həcmi 52 vərəqdir [64].

Güney Azərbaycandan olan soydaşımız Məhəmməd Dəyhim öz təzkirəsini dövr məhdudiyyəti qoymadan, coğrafi prinsip əsasında tərtib etmişdir. Təzkirə 1989-1992-ci illərdə «Təzkireyi-şüərayi-Azərbaycan» adı altında Təbrizdə beş cilddə nəşr olunmuşdur. Əsərin birinci cildi Ərdəbil, Arazbar, Urmiya, Ərvənəq şairlərinə, ikinci və üçüncü cildləri Təbriz şairlərinə, dördüncü cildi Xalxal, Xoy, Sərab, Səlmas, Mərənd, Marağa, Qoşaçay (Miyandüab), Miyanə və Savucbulaq (Mehabad) şairlərinə, beşinci cildi isə əsas etibarilə Şimali Azərbaycan şairlərinə həsr olunmuşdur. Qeyd edək ki, bu təzkirədə həm Azərbaycan türkcəsində, həm də farsca şeirlərdən örnəklər yer almışdır. Əsərin ilk dörd cildinin nəsr hissəsi farsca yazıldığı halda, sonuncu cildin nəsrində daha çox doğma dilimizə üstünlük verilmişdir.

Qulam Məmmədli «Təzkirə»si «Danişməndani-Azərbaycan»dan sonra tərtib olunmuş digər universal xarakterli təzkirədir. O, «Azərbaycanın alim, yazıçı, şair və başqa görkəmli xadimləri haqqında biblioqrafik materiallar» adlı təzkirəsini 1954-cü ildə tərtibləmişdir. Təzkirə Azərb. MEA Əlyazmalar İnstitutunda B-2701 şifrəsi altında mühafizə olunur. 1418 vərəq həcmində olan əsər təxminən mindən artıq tanınmış şəxsiyyətin tərcümeyi-halı və əsərlərindən nümunələri əhatə edir[65].

---

[64] İbrahim Tahir Musayev. Riyazül-arifin. Əlyazmalar İnstitutu, D-207.

[65] Qulam Məmmədli. Təzkirə. Əlyazmalar İnstitutu, B-2701.

Bəhs olunan bu istiqamətlərdən əlavə, Azərbaycanda XX əsrin ortalarından başlayaraq təzkirə xarakterli nümunələr yaradılmışdır[66].

XXI əsrdə ilk təzkirəni Şahin Fazil qələmə almışdır[67]. Təzkirədə XIX əsrin 80-cı illərində yaradılmış, 43 il fəaliyyət göstərən, 1980-cı ildə yenidən bərpa olunan "Məcməüş-şüəra" və onun üzvlərindən bəhs olunur.

**Osmanlı təzkirəçiliyi.** Dövlətşah Səmərqəndi və Əlişir Nəvai təzkirələrinin qazandığı şöhrət səbəbi ilə XVI əsrdən etibarən bu klassik nümunələrin təsiri altında Osmanlı ədəbiyyatında da təzkirələr yazılmağa başlamışdı.

Osmanlı ölkəsində təzkirə janrının təməlini Səhi bəy (?- h. 955/1548) h. 945 / 1538-ci ildə tamamladığı «Həşt behişt»i ilə qoymuşdur. «Həşt behişt» ön söz, hər birinə «behişt» adı verilən 8 təbəqə və bir xatimədən ibarətdir[68]. Ümumilikdə təzkirədə 241 nəfər şair xatırlanmışdır. Bu təzkirə üslub və struktur baxımından Herat təzkirələrini izləyir. «Həşt behişt»in ən önəmli cəhəti Anadoluda yeni bir ədəbi janrın əsasını qoymasıdır.

«Həşt behişt»dən sonra, Anadolu sahəsində yazılmış ikinci təzkirənin müəllifi Qəstimonulu Lətifidir (h.896/ 1491-h.990/1582). «Təzkirətüş-şüəra və təbsirətün-nüzəma» adlı bu əsər müqəddimə, 3 fəsil və xatimədən ibarətdir. Lətifi təzkirəsini h.953/1546-cı ildə tamamlayıb, Qanuni Sultan Süleymana

---

[66] Azərbaycanın şair və aşıq qadınları /Tərt. ed.: Ə. Cəfərzadə. Bakı, 1991, 288 s; Azərbaycan qəzəlləri / Tərt. ed.: Məmməd Nuruoğlu. Bakı, 1991, 240 s; Deyilən söz yadigardır / Tərt. ed.: C. Rəmzi. Bakı, 1987, 433 s.

[67] Şahin Fazil. Təzkireyi-Şahin. Bakı, 2006, 818 s.

[68] Sehi Bey. Tezkire «Heşt bihişt» / hazır: Doç., Dr. M. İsen. İstanbul: Tercüman qazetesi, 1980, 260 s.; Heşt bihişt: The tezkire by Sehi Beg. Work on ottoman poets witha critical edition based Mus. Suleymaniye Library, Ayasofya O.3545 by Gunay Kit. Harward-Cambridge, 1978.

təqdim etmişdir[69]. I fəsildə, Anadoluda yaşayan və ya buraya gəlib, «Rumi» kimi tanınan 13 şeyx şairdən bəhs olunmuşdur. Təzkirənin II fəslində Osmanlı ölkəsində şeir yazan sultan və şahzadə şairlərə yer verilmişdir. Əsərin ən önəmli hissəsini təşkil edən III fəsildə II Muradın hakimiyyəti dövründən h.950-ci ilə qədər Anadolu və Balkanlarda yaşayıb-yaradan şairlərdən 314 nəfəri haqqında məlumat əlifba sırası ilə verilmişdir.

XVI əsrdə tərtib olunmuş təzkirə müəlliflərindən biri də Aşiq Çələbidir (h. 926/1520 - h. 979/1572). Tanınmış türk şairi və münşilərindən olan və tərtib etdiyi təzkirəsi ilə şöhrət qazanan Aşiq Çələbinin ədəbi yaradıcılığı təzkirə, tərcümələr və mənzum əsərlərindən ibarətdir. «Məşairüş-şüəra»[70] Aşiq Çələbinin ən məşhur əsəri olub, h.976/1568-ci ildə tamamlanmış və dövrün padşahı II Səlimə təqdim olunmuşdur. «Məşairüş-şüəra» müqəddimə və şairlərdən bəhs edən hissədən ibarətdir. Təzkirədəki şair sayı müxtəlif əlyazma nüsxələrinə görə 360 ilə 427 nəfər arasında dəyişir. «Məşairüş-şüəra»nı daha əvvəl və sonra bu janrda yazılan təzkirələrdən fərqləndirən spesifik cəhət, müasiri olan şairlərə geniş yer verməsi, onları dostları, yaşayış tərzləri, məişətləri, əyləncələri və xarakterləri ilə canlandırmasıdır. Müəllif şairlərdən bəhs edərkən öz fikirlərini, lətifə və hekayələri də bura əlavə etmiş və beləliklə, əsərə digər təzkirələrdə olmayan cəhətləri artırmışdır. Bundan əlavə, bu təzkirə Şərq təzkirəçilik tarixində əbcəd ardıcıllığı əsasında tərtiblənmiş yeganə təzkirə kimi xatırlanır.

---

[69] Latifi. Latifi tezkiresi / hazırl. Doç. Dr. M.İsen. Ankara: Kültür Ba-kanlığı, 1990, 513 s; Latifi Tezkiretüş-şuara ve Tabsıratün- nuzama (İnceleme-metin) / haz.R.Canım. Ankara: 2000, IX+ 935 s.

[70] Aşık Çelebi. Meşa'irü'ş-Şu'ara / hazır.: Prof. Dr. F. Kılıç. 3 cildde. – İstanbul: İstanbul Araştırmaları Enstitüsü, 2010; Aşık Çelebi ve şairler tezkiresi üzerine yazılar / Derleyenler: Aynur H., Niyazioğlu A. – İstanbul: Yapı Kredi Yayınları, 2011. – 192 s.

XVI əsrdə yazılmış təzkirələrdən digər birinin müəllifi Qınalızadə Həsən Çələbidir (h.953/1546-h.1012 /1604). Həsən Çələbi dövrünün tanınmış alimlərindən biri olmuşdur. «Təzkirətüş-şüəra» adlı əsərini h.994 /1586-cı ildə qələmə almışdır[71]. Təzkirənin strukturuna gəlincə, əsər müqəddimə, sultan, şahzadə və əsil şairlər olmaqla 3 fəsildən ibarətdir. I və II fəsildəki padşah və şahzadələr xronoloji prinsipə, III fəsildəki şairlər isə əlifba sırasına uyğun sıralanmışlar. Təzkirənin I fəslində 6 padşahdan, II fəslində 5 şahzadədən, III fəsildə isə 627 nəfər şairlərdən bəhs olunmuşdur. Bu təzkirədə özündən əvvəl yazılmış təzkirələrdə rast gəlmədiyimiz 122 nəfər şair ilk dəfə xatırlanmışdır. Qınalızadə təzkirəsinin 600-dən artıq şairi əhatə etməsini nəzərə alsaq, bu əsəri türk təzkirəçiliyi tarixində ən iri həcmli təzkirələrdən hesab etmək olar. Təzkirə ağır, çətin üslubda qələmə alınmışdır.

XVI əsrdə Osmanlı sahəsində təzkirə tərtib etmiş digər bir təzkirəçi Mustafa Bəyanidir. Bəyani ədəbi mühitdə «Təzkirətüş-şüəra»sı (h.1006/1597) ilə tanınmışdır[72]. Təzkirə müqəddimə və iki bölmədən ibarətdir. «Təzkirətüş-şüəra»nın birinci bölməsində 5 padşah və 4 şahzadədən bəhs olunmuşdur. Əsərin ikinci bölməsində isə XV-XVI əsrdə yaşamış 377 nəfər şairə yer verilmişdir. Bu əsər Qınalızadə təzkirəsinin xülasəsidir və müqəddimədən də məlum olduğu kimi, Bəyani, Qınalızadə təzkirəsini tamlıqla köçürə bilmədiyi üçün yalnız tanınmış şairləri seçib əsərinə daxil etmişdir. Bəyani əsərinə Qınalızadə təzkirəsində olmayan şairləri də əlavə etmişdir. Bunların arasında Xaqani, Xəlvəti, Xıdri, Müidi, Meyli kimi şairlərin adını çəkmək olar. Bəyani təzkirəsi Qınalızadə təzkirəsinin xülasəsi olmaqla bərabər, şairlərin həyatlarına əlavələr olun-

[71] Kınalızade Hasan Çelebi. Tezkiretüş-şuara. C.I-II, Ankara: Türk Tarih Kurumu Basımevi, 1978 - 1989, 1094 s.

[72] Beyani Mustafa bin Carullah Tezkiretüş–şuara / eleştirmeli baskıya hazırlayan Dr. İ.Kutluk. Ankara: TDK, 1997, 90 + 345s.

ması və bir neçə yeni şairi əhatə etməsi baxımından tamamlayıcı xarakter daşıyır.

Türkiyə ədəbiyyatında XVII əsrdə də təzkirəçilik ənənəsi davam etmişdir. Bu əsərlər XVI əsrdə yazılmış təzkirələrin demək olar ki, zeylidir və XVI əsrdə təməli qoyulan və bir-birinin ardınca qiymətli nümunələr verən Türkiyə təzkirəçiliyini fasiləsiz davam etdirən əsərlərdir. XVII əsr təzkirəçilərindən Riyazi, Faizi, Rza, Yümni, Asim və Güftinin adlarını çəkə bilərik.

XVII əsrdə də Osmanlı təzkirəçiləri təzkirəçilik ənənəsini davam etdirmişlər. Ancaq XVII əsr təzkirələri XVI əsrdə bu janrda tərtiblənmiş əsərlərdən müəyyən cəhətlərinə görə fərqlənmişdir. Belə ki, XVI əsr təzkirəçiləri öz dövrlərindən əvvəl yaşayan şairləri əsərlərində xatırlamışdılar. Bu səbəbdən təzkirələrdəki bio-biblioqrafik məlumatı da çox geniş olurdu və bu təzkirələrin həcminə də təsir etmişdir. XVII əsr təzkirəçiləri isə daha çox öz dövrlərində yaşayıb-yaradan şairlərdən bəhs edir və bio-biblioqrafik məlumatı çox qısa verirdilər. Əvəzində isə şeirlərdən nümunələr artırılırdı. Beləliklə, qeyd olunan bu dəyişikliklər nəticəsində XVII əsrdən etibarən Osmanlı təzkirəçiliyi tarixində antologiya xarakterli təzkirələr tərtiblənməyə başladı.

Riyazi təzkirəsi bu iki əsr arasında keçid dövrünün məhsuludur. Riyazi təzkirəsini h.1016/1607-ci ildə yazmağa başlayıb, h.1018/1609-cu ilin rəcəb ayında bitirdiyini əsərin sonunda yazdığı tarixdən öyrənirik. Təzkirə tərtiblənərkən daha əvvəl yazılmış təzkirələrdən istifadə edilmişdir. Əsər müqəddimə və 2 rövzədən ibarətdir. Təzkirədə ümumilikdə 424 şair haqqında məlumat verilmişdir. Riyazi özündən əvvəlki təzkirəçiləri tənqid etsə də, ikinci rövzədəki şairlər haqqında məlumat verərkən bu əsərlərdən bəhrələnmişdir. «Riyazüş-şüəra» XVII əsrin ən diqqətəlayiq təzkirəsidir. Əsərin ən önəmli cəhəti bütün şairlərin vəfat tarixlərini əks etdirməsindədir. Riyazi təzkirəsinə daxil etdiyi bütün şairlərin demək olar ki, əsərlərinin hamısını nəzərdən keçirmiş və yalnız tərifə layiq

olan şeirləri seçmişdir. Ancaq digər təzkirəçilər bu çətinliyi öz üzərlərinə götürməmişlər [73].

Qafzadə Faizi (h.998/1589-h.1031/1622) «Zübdətül-əşar» adlı antologiya xarakterli təzkirəsi ilə tanınmışdır. Təzkirədə XV əsrin ortalarından başlayaraq, yazıldığı 1621-ci ilə qədər yaşamış 14-ü qadın olmaqla, 515 nəfər şairdən bəhs edilmişdir. Bunlardan 57-si ancaq bu təzkirədə xatırlanmışdır. Əsərdə şairlər haqqındakı bio-biblioqrafik məlumat iki-üç cümlədən artıq deyildir. Faizi təzkirəsinə daxil etdiyi şairlərin vəfat tarixlərini verməyə diqqət yetirmiş, dəqiq bilmədiyi tarixləri isə şairlərin yaşadığı dövrü əks etdirən ifadələrdən istifadə etməklə vermişdir. Faizinin «Zübdətül-əşar»ı təzkirədən çox antologiyanı xatırladır.

Əsrin digər bir təzkirəçisi Zəhrimarzadə Rzadır (?/1671). Divan müəllifi olan Rza h. 1050/1640-cı ildə təzkirəsini tamamlayıb, Sultan İbrahimə təqdim etmişdir. Təzkirə qısa bir ön söz, 2 fəsil və xatimədən ibarətdir. Təzkirəçi ön sözdə əsərinə əvvəlki dövr padşahları ilə yanaşı, h.1000/1591-ci ildən sonra yetişən şairləri daxil etdiyini yazır[74]. Təzkirənin «Zikr-i şüəra-yi səlatin-i maziyyə» başlıqlı birinci bölməsində 9 şair padşahdan bəhs olunmuşdur. Onlardan hər birinin təxəllüsü, səltənət tarixləri və müddəti, şeirlərindən iki-üç beyt nümunə verilmişdir. Əsərin II bölməsində əlifba sırası ilə h.1000/ 1591-1050/1640-cı illər arasında yetişən 257 şair haqqında məlumat yer almışdır. Padşahlarla birlikdə təzkirədəki şair sayı 266-ya çatır.

---

[73] Gibb V. Osmanlı şiir tarihi / terc. A.Çavuşoğlu. 3-4-5. c. Ankara: Akçağ, 1999, s. 149.

[74] Zavotçu G. Rıza tezkiresi (inceleme-metin). – İstanbul: Sahhaflar Kitap Sarayı, 2009; Rıza. Tezkire-i Rıza, İstanbul: Dersaadat, 1316; Seyyid Riza Zehrimarzade. Riza tezkiresi / neşreden. Dr.S.Erdağı. Ankara: Türk dili ve edebiyatı kitapları, 2002, VII+109 s.

Riyazi və Rza təzkirələrini qarşılaşdırdıqda məlum olur ki, bu iki əsər XVI əsr klassik təzkirələri ilə antologiya xarakteri daşıyan təzkirələr arasında yer almışdır.

XVII əsrdə tərtiblənmiş başqa bir təzkirənin müəllifi Yümnidir (?/1662). O, Qafzadə Faizinin təzkirəsinə zeyl yazaraq «təzkirənevislər» sırasına düşmüşdür. Yümninin qələmə aldığı yeganə əsər «Təzkireyi-şüəra-yi Yümni» adlı təzkirəsidir[75]. Təzkirə 1621-1622-ci illərdə yaşayıb-yaratmış 29 şairi əhatə edir. Əsər 1622-ci ildə təzkirəçinin vəfatı səbəbi ilə yarımçıq qalmışdır. Yümni şairlər haqqında bir-iki sətirlık, çox qısa məlumat və şeirlərindən iki beytlə üç qəzəl arasında nümunə verir. Yümni təzkirəsi digər təzkirələrdə rast gəlmədiyimiz 11 nəfər şair haqqında məlumat verən ilkin mənbə kimi dəyərlidir.

Faizinin «Zübdətül-əşar»ına Yümnidən sonra ikinci zeyli Seyrəkzadə Mehmed Asim (?-1675) yazmış və əsərini «Zeyli-zübdətül-əşar» adı vermişdir. Əsər antologiya xarakterlidir. Təzkirəçi əsərinə h. 1030 - ci ildən ölümünə qədər 55 il ərzində yaşayıb-yaratmış şairləri toplamışdır. Asim əlifba sırasına görə verdiyi 123 şairdən sonra, əsərin Qafzadə Faizinin təzkirəsinə zeyl olduğunu və «Zeyli-zübdətül-əşar» adlandırdığını yazır. Antologiya xarakterli təzkirələr içərisində ən az məlumatı əhatə edib, ən çox nümunəni əks etdirən Asim təzkirəsidir.

XVII əsrin ikinci dərəcəli şairi hesab olunan Ədirnəli Əli Güfti (?- h.1088 / 1677) orijinal əsərləri ilə diqqəti cəlb etmişdir. Güftinin 2400 beytdən ibarət olan «Təşrifatüş-şüəra» adlı təzkirəsi türk ədəbiyyatında nəzmlə qələmə alınmış yeganə təzkirədir[76]. Güftidən başqa heç bir təzkirəçi mənzum təzkirə qələmə almamışdır. Təzkirədə 106 şairdən bəhs olunmuşdur.

---

[75] Erdem S. Mehmet Salih Yumni-Tezkire-i şuarayi - Yümni // Türk dünyası araştırmaları, 1988 Ağustos, № 55, s.85 – 112.

[76] Güfti ve Teşrifatüş-şuarası / hazır.: K.Yılmaz. - Ankara: Atatürk Kültür Merkezi Yayınları, 2001,. - 300 s.

Digər təzkirələrdə rast gəlmədiyimiz 25 şair haqqında məlumatı məhz bu əsərdən alırıq.

Prof.Dr. F.Kılıç apardığı araşdırmalara əsasən XVII əsr təzkirələrinin forma və məzmun baxımından XVI və XVIII əsr təzkirələrindən fərqli quruluşa malik olduğunu, lakin məlumatların verilmə sistemində, istifadə olunan terminologiyada fərqlilik təsbit edilmədiyini yazır. Alim XVI və XVIII əsr təzkirələrinin həcm etibarilə XVII əsrdən daha böyük olduğundan bunlarda istifadə olunan terminlərin çox və çeşidli olduğunu vurğulayır[77].

XVIII əsrdə də Osmanlı ədəbiyyatında təcrübəli təzkirəçilər yetişmişdir. Mustafa Mücib Əfəndi XVIII əsrin ilk təzkirəçisidir. O, gəncliyində şairlərin şeirlərindən ibarət məcmuə tərtibləmiş, daha sonra əsəri genişləndirərək h. 1120/1710-cu ildə təzkirəsini yaratmışdır. Təzkirəsinə qısa bir giriş və IV Muradın bioqrafiyası ilə başlayan Mücib Əfəndi, əvvəlki təzkirəçilər kimi sultanları, müəyyən məslək sahiblərini bir qrupda sistemləşdirməyərək, sadəcə müasiri olan şairləri əlifba sırası ilə vermişdir. Təzkirə XVI əsrin sonlarından başlayaraq müəllifin çağdaşı olan şairlərdən 107-sini əhatə edir[78].

Dövrünün tanınmış təzkirəçilərindən biri də Mustafa Səfayidir. Səfayi, Rza təzkirəsinin qaldığı 1640-cı ildən öz dövrünə qədər yetişən şairləri təzkirəsinə daxil etmişdir. Onun h.1132/ 1720-ci ildə tamamladığı «Nüxbətül-əsar min fəvaidil-əşair» bir ön söz, on səkkiz təqriz (rəy) və əlifba sırası ilə 476 nəfər şair haqqında verilən bilgilərdən ibarətdir[79]. Müəllif təz-

---

[77] Kılıç F. XVII. yüzyıl tezkirelerinde şair ve eser üzerine değerlendirmeler. Ankara, 1998, s. 353.

[78] Mücib Mustafa. Tezkire-i Mücib. Ankara, 1997, 84 s.

[79] Mustafa Safai Efendi. Tezkire-i Safayi / haz.: P.Çapan. Ankara: Atatürk Kültür Merkezi Başkanlığı Yayınları, 2005, 750 s.

kirəsini dövrünün sədrəzəmi Damad İbrahim paşaya təqdim etmişdir. Səfayi təzkirəsini tamamladıqdan sonra dövrünün tanınmış on səkkiz elm adamına göstərib, onlardan əsər haqqında rəy almışdır və həmin rəyləri əsərin əvvəlinə əlavə etmişdir. Təzkirəçilik tarixində Səfayiyə qədər belə bir ənənəyə rast gəlinməmişdir. Səfvət Əfəndi XVIII əsrin sonlarında Səfayi təzkirəsini qısaldaraq yeni bir təzkirə tərtibləmişdir [80].

Salim adlı təzkirəçi h.1134/1722-ci ildə təzkirəsini tamamlamışdır[81]. Giriş və iki fəsildən ibarət olan təzkirədə 428 şairdən bəhs olunmuşdur. Bursalı İsmayıl Bəliğ h.1139/1727-ci ildə tamamladığı «Nüxbətül-əsar li zeyli-Zübdətül-əşar» adlı əsərini Qafzadə Faizinin «Zübdətül-əşar»ına zeyl yazmışdır[82]. «Ədəbi-zürəfa» müəllifi Hüseyn Ramizin h.1198/1784-cü ildə tamamladığı və "Ramiz təzkirəsi" kimi məşhurlaşan əsəri h.1132/1720-h.1198/1784-cü illər arasında yaşayıb-yaratmış 375 şair haqqında məlumat verir[83]. XVIII əsrin ikinci yarısında yaşayan Silahzadə Mehmed Əminin h.1204/1790-cu ildə sistemsiz şəkildə tərtiblədiyi "Təzkirətüş-şüəra"sı h.1164 /1751-h.1204/1790-cı illər arasında yaşayan 127 şairin həyat və yaradıcılığını əhatə edir. Bu təzkirə Bəliğ təzkirəsinin zeylidir. Əsl adı Səfvət olub, Kəmiksizzadə kimi tanınan XVIII əsr təzkirəçisi h.1137/1783-cü ildə Səfayi təzkirəsini ixtisar edərək təzkirə tərtibləmişdir. Bu təzkirə Səfayi təzkirəsinin əvvəlindəki rəylərin qısaldılmış şəklindən, həmin əsərdən seçilmiş 326 şair

---

[80] İsen M., Kılıc F., Aksoyak İ., Eyduran A. Şair tezkireleri, Ankara, 2002, s. 106.

[81] Salim Efendi. Tezkiretüş-şüara. İnceleme-metin/ haz: A.İnce. Ankara: AKMY, 2005, 756 s.

[82] İsmail Beliğ. Nuhbetül-asar li-zeyli Zübdetil-eşar. Ankara, 1985, XXII +718s.

[83] Ramiz ve Adab-ı Zurafası. Ankara, 1994, XLVII+401 s.

haqqında məlumatdan və sona əlavə olunmuş «Teyzil-kitab» hissəsindən ibarətdir.

XVIII əsrdə mövləvilər arasında tanınmış şairlərdən biri Əsrar Dədədir. Onun tərtiblədiyi «Təzkireyi-şüərayi mövləviyyə» h.1211/1797-ci ilə qədər yaşayan 212 mövləvi şairi əhatə edir[84]. Əndərunlu Akif isə «Miratül-şeir» adlı təzkirə tərtibləmişdir [85].

XVIII əsr təzkirələri üzərində araşdırma aparmış Prof.Dr. P.Çapan bu əsərləri aşağıdakı şəkildə xarakterizə edir: "XVIII yüzyıl tezkirelerinin iddia edilenin aksine, bir özentiden ziyade ananenin gelişip olgunlaşmasının ürünü oldukları kanaatindeyiz[86]".

XIX əsrdə Osmanlı ədəbiyyatında təzkirəçilik əvvəlki əhəmiyyətini itirməyə başlamışdı. Bu əsrin ilk təzkirəçisi Seyid Əbdülfəttah Şəfqətdir. Onun h. 1229 / 1814-cü ildə yazdığı «Təzkirətüş-şüəra» 1730-1814-cü illər arasında yetişmiş 125 şair haqqında məlumatı əhatə edir.

Əsad Əfəndinin h. 1251/1835-ci ildə qələmə aldığı «Bağçeyi səfa-ənduz» adlı təzkirəsində h.1135/1722–1251/ 1835-ci illərdə yaşayıb yaradan 209 şairdən bəhs olunmuşdur. Əsər Salim təzkirəsinə zeyl olaraq yazılmışdır.

Dövrünün tanınmış alimi və şeyxülislamı olan Arif Hikmətin tərtib etdiyi təzkirə h. 1000/1592 - 1252/1837-ci illərdə həm Osmanlı ölkəsində, həm də Azərbaycanda, Krımda yaşayıb-yaratmış 203 şair haqqında məlumatı əhatə edir. Əsərin

---

[84] Esrar Dede. Tezkire-i Şuara-yi Mevleviye. Ankara, 2000, VI+596 s.

[85] İsen M., Kılıc F., Aksoyak İ., Eyduran A. Şair tezkireleri. Ankara, 2002, s.129.

[86] Çapan P. 18.yy. tezkirelerinde edebiyat araştırma ve eleştirisi. Fırat Üniversitesi, SBE, yayımlanmamış doktora tezi. Elazığ, 1993, s. 541.

dövrümüzə gəlib çatmış yeganə nüsxəsi Millət Kitabxanası Əli Əmiri bölümündə 789 şifrəsi ilə mühafizə olunmaqdadır.

XIX əsr şairi Fatin Əfəndinin (1814-1866) qələmə aldığı «Xatimətül-əşar» adlı təzkirəsində h.1134/ 1721-ci ildən h.1269 / 1853-cü ilə qədər yetişən 683 nəfər şair haqqında məlumat vermişdir[87]. Əsər Salim və Səfayi təzkirəsinə zeyl olaraq yazılmışdır. Əsərin əvvəlində təzkirənin tamamlandığına dair beş təqriz və altı tarix yer almışdır. Təzkirədə şairlər təxəllüslərinə görə deyil, adlarına görə əlifba prinsipi əsasında sıralanmışdır. «Xatimətül-əşar»ın digər təzkirələrdən fərqləndirən cəhəti əsərlərdən nümunələrin əvvəldə, tərümeyi-halların isə ondan sonra verilməsidir.

Ədəbiyyat tarixçisi və tədqiqatçısı Mahmud Kamal İnalın «Kamalüş-şüəra» adlı əsəri Fatin təzkirəsinə zeyl olaraq yazılmışdır. Əsər 1800-1941-ci illər arasında yaşayıb-yaratmış 556 nəfər şairin tərcümeyi-halını və əsərlərindən örnəkləri əhatə etməkdədir. İndiyə kimi əsərin dörd cildi nəşr olunmuşdur[88]. Sadəcə beşinci cild işıq üzü görməmişdir. Bu təzkirə XIX əsr mühacir Azərbaycan şairləri haqqında məlumatı əhatə etməsi baxımından önəmli yerə sahibdir[89].

XX əsrdə yazılan təzkirələrdən birincisi «Təzkireyi-şüərayi-Amid»dir. Əli Əmiri tərəfindən qələmə alınan bu təzkirə Diyarbəkrdə yetişən 73 şair haqqında məlumat verir. Sonuncu

---

[87] Fatîn Davud - Hâtimetü'l-Eş'ar. T.C. Kültür ve Turizm Bakanlığı Yay. (e-kitap), Ankara; Fatin Davud. Xatimətül-əşar. İstanbul, 1271.

[88] İnal İbnül-Emin Mahmud Kemal. Son asır Türk şairleri (Kemalüş-şuara) 4 cildde. 1. c. Haz: M. Cunbur. Ankara: AKMY, 1999, X+678; 2.c., haz: M.Kayahan Özgül. AKMBY, 2000, 544; 3. c., haz: H.Özcan, AKMBY, 2000, VII+493; 4. c., haz: İ.Baştuğ, AKMBY, 2002, VIII+490.

[89] Musalı V. Mahmud Kamal İnal təzkirəsində azərbaycanlı şairlər / "Azərbaycan dünya ədəbiyyatında" Beynəlxalq konfrans. 27 – 28 may 2011. məruzə.

Türkiyə təzkirəçisi Naili Tumandır. O, «Töhfeyi-Naili» adlı təzkirəsini 1949-cu ildə tamamlamışdır. Bu əsəri "təzkirələr təzkirəsi" də adlandırmaq olar. Çünki, Nail Tuman digər təzkirələrdəki məlumatları bir yerə toplayaraq təzkirə tərtibləmişdir.

Türkiyədə təzkirəçilik ənənəsi dörd yüz ilə qədər davam etmiş, elmi və ədəbi örnəklərin zirvədə olduğu dövrlərdə ən gözəl nümunələri yaradılmış, bəzən bu ənənə zəifləmiş, XVIII əsrdə xüsusilə Səfai və Salimin tərtiblədikləri təzkirələrlə yenidən inkişafa başlasa da, getdikcə zəifləmiş, tənzimatdan sonra isə ədəbiyyat tarixi ehtiyacına cavab verəcək yeni ədəbiyyatşünaslıq əsərlərinin yazılması ilə demək olar ki, unudulmuşdur.

Osmanlı təzkirələri XV-XX əsrlərdə Türkiyəyə müxtəlif səbəblərlə mühacirət etmiş Azərbaycan ədəbiyyatının nümayəndələrinin və ümumiyyətlə, azərbaycanlı şairlərin həyat və yaradıcılığını araşdırmaq üçün mühüm qaynaqlardandır.

Apardığımız araşdırmalar nəticəsində məlum olmuşdur ki, Türkiyədə təzkirələr və təzkirələrə həsr olunmuş kitabların sayı 74-dür. Bundan əlavə şair təzkirələri mövzusunda 326 məqalə nəşr olunmuş, 114 dissertasiya müdafiə edilmişdir. Azərbaycan dilində isə 25 kitab, 113 məqalə işıq üzü görmüşdür. Dissertasiyaların sayı isə 6-dır. Ona görə də, Azərbaycan təzkirəçilik tarixinin öyrənilməsində görüləcək çox işlərin olduğunu xüsusi qeyd etmək lazımdır.

# *ƏLYAZMALAR*

## *Fars dilində*

### 1. Bəhmən Mirzə. Təzkireyi-Məhəmməd Şahi AMEA Əlyazmalar İnstitutu M - 24

Həcmi: 287 vərəq
Ölçüsü: 10x18 sm
Xətti: incə nəstəliq
Tarixi: h.1248/1832
Katibi: Məhəmmədhüseyn Təbrizi
Yer: Ərdəbil

Zərli ornamentlə bəzədilmiş bu əlyazmasının ərəbcə olan bütün mətnlərinin altında farsca tərcüməsi verilmişdir. H.1250-ci ildə Məhəmmədkərim Şirazi tərəfindən yoxlanılmışdır.

### 2. Dövlətşah Səmərqəndi. Təzkirətüş-şüəra Topqapı Sarayı Muzeyi K/X. EH 1225

Həcmi: 130 vərəq
Ölçüsü: 240 x 144 mm
Tarixi: h. 986/1578
Sətir sayı: 25

**3. Yenə həmin əsər**
**Topqapı Sarayı Muzeyi K/X. H 1267**

Həcmi: 288 vərəq
Ölçüsü: 250 x 157 mm
Tarixi: XVII əsrin əvvəlləri
Xətti: təliq
Sətir sayı: 17
Kağızı: abadi
Cild: dəri

**4. Yenə həmin əsər**
**Topqapı Sarayı Muzeyi K/X. H 1268**

Həcmi: 322 vərəq
Ölçüsü: 245x155 mm
Tarixi: h.1108/1697
Katibi: Musa bin Rəhmanqulu xan
Yeri: İsfahan
Sətir sayı: 15
Cild: dəri

**5. Yenə həmin əsər**
**Milli Kitabxana,**
**Afyon Gedik Əhməd Paşa El K/X. № 03 Gedik 18281**

Bu nüsxənin paleoqrafik xüsusiyyətləri haqqında məlumat verilməmişdir. Yalnız əlyazmanın əvvəlində Şeyx Əhməd Kəmaləddin Çələbinin h.1289/1872-ci il tarixli vəqf qeydi və möhür olduğu qeyd olunmuşdur.

**6. Yenə həmin əsər**
**Kütahya Vahid Paşa El Xalq K/X. № 43 Va 1133**

Həcmi: 156 vərəq
Ölçüsü: 180x105 (145x150) mm
Xətti: təliq
Sətir sayı: 17
Kağızı: abadi
Cild: qara meşin cild

**7. Yenə həmin əsər**
**İstanbul Süleymaniyə Yazma Əsər K/X.**
**Süleymaniyə Aşir Əfəndi kolleksiyası № 34 Şü-Aşir 242**

Həcmi: 216 vərəq
Ölçüsü: 238x153 (163x101) mm
Xətti: nəstəliq
Katibi: Mehdi bin Əli
Sətir sayı: 19
Kağızı: abadi
Cild: meşin cild

**8. Yenə həmin əsər**
**Milli Kitabxana**
**Yazmalar Kolleksiyası № 06 Mil Yz B 67**

Həcmi: 315 vərəq
Ölçüsü: 255 x 175 (160x105) mm
Xətti: təliq
Katibi: Məhəmməd Kamil bin Əlişir

Sətir sayı: 15
Kağızı: abadi
Cild: meşin cild

**9. Yenə həmin əsər**
**Türkiyə Universitet K/X. Fy - 705**

Həcmi: 238 vərəq
Ölçüsü: 15,4 x 24,7 sm
Xətti: nəstəliq
Cild: açıq qəhvəyi meşin

**10. Yenə həmin əsər**
**Konya Mövlana Muzeyi K/X. 1510**

Həcmi: 249 vərəq
Ölçüsü: 22,8 x 12,5 sm
Xətti: təliq

**11. Yenə həmin əsər**
**Vyana Milli K/X. Nr. 65 Mxt 350**

Həcmi: 262 vərəq
Xətti: təliq
Sətir sayı: 17
Tarixi: h. 892/1487

**12. Yenə həmin əsər**
**Vyana Milli K/X. Mxt. 395**

Həcmi: 209 vərəq

Xətti: təliq
Katibi: Yusif Bosnəvi
Sətir sayı: 21
Tarixi: h. 892/1487

**13. Yenə həmin əsər**
**Berlin K/X. 638**

Həcmi: 201 vərəq
Ölçüsü: 24,5 x 16,5 sm
Xətti: təliq
Sətir sayı: 19
Tarixi: h. 974/1567

**14. Yenə həmin əsər**
**Berlin K/X. 639**

Həcmi: 236 vərəq
Ölçüsü: 24x11 sm
Katibi: Ziyaəddin Məhəmməd ibn Həqqi
Sətir sayı: 19
Tarixi: h.1078/1667

**15. Yenə həmin əsər**
**Berlin K/X. 640**

Həcmi: 195 vərəq
Ölçüsü: 23x15 sm
Xətti: nəstəliq
Sətir sayı: 21

**16. Yenə həmin əsər**
**Berlin K/X. 641**

Həcmi: 200 vərəq
Ölçüsü: 25x14 sm
Xətti: təliq
Tarixi: h.1009/1600

**17. Yenə həmin əsər**
**Berlin K/X. 642**

Həcmi: 41 vərəq
Xətti: nəstəliq

**18. Yenə həmin əsər**
**Paris Milli K/X. 984**

Həcmi: 125 vərəq
Ölçüsü: 13 sm
Xətti: nəstəliq
Sətir sayı:23
Tarixi: h. 967/1560

**19. Yenə həmin əsər**
**Paris Milli K/X. 1170**

Həcmi: 202 vərəq
Ölçüsü: 15 sm
Katibi: Baba şah İsfahani
Xətti: nəstəliq

Sətir sayı: 24
Tarixi: h. 974/1566

**20. Yenə həmin əsər**
**Paris Milli K/X. 246**

Həcmi: 252 vərəq
Ölçüsü: 16 sm
Katibi: Şeyx Heydər ibn Şeyx Məhəmməd
Xətti: nəstəliq
Sətir sayı: 24
Tarixi: h.981/1573

**21. Yenə həmin əsər**
**Paris Milli K/X. 83**

Həcmi: 263 vərəq
Ölçüsü: 12 sm
Katibi: Mustafa bin Məhəmməd
Xətti: təliq
Sətir sayı: 20
Tarixi: h.983/1575

**22. Yenə həmin əsər**
**Paris Milli K/X. 250**

Həcmi: 201 vərəq
Ölçüsü: 14 sm
Xətti: nəstəliq
Sətir sayı: 21

Tarixi: h.987/1579

**23. Yenə həmin əsər**
**Paris Milli K/X. 831**

Həcmi: 158 vərəq
Ölçüsü: 15 sm
Xətti: nəsx
Sətir sayı: 21
Tarixi: h.993/1585

**24. Yenə həmin əsər**
**Paris Milli K/X. 249**

Həcmi: 251 vərəq
Ölçüsü: 14 sm
Katibi: Həsən ibn Nurəddin
Xətti: nəstəliq
Sətir sayı: 21
Tarixi: h.1006/1597

**25. Yenə həmin əsər**
**Paris Milli K/X. 829**

Həcmi: 208 vərəq
Ölçüsü: 17 sm
Xətti: nəstəliq
Sətir sayı: 25
Tarixi: h.1026/1617

**26. Yenə həmin əsər**
**Paris Milli K/X. 828**

Həcmi: 142 vərəq
Ölçüsü: 24 sm
Xətti: nəstəliq
Sətir sayı: 36
Tarixi: h.1007/1696

**27. Yenə həmin əsər**
**Paris Milli K/X. 830**

Həcmi: 231 vərəq
Ölçüsü: 16 sm
Xətti: nəstəliq
Sətir sayı: 27
Tarixi: XVII əsr

**28. Yenə həmin əsər**
**Paris Milli K/X. 1423**

Həcmi: 204 vərəq
Ölçüsü: 14 sm
Xətti: nəstəliq
Sətir sayı: 24
Tarixi: XVII əsr

**29. Yenə həmin əsər**
**Paris Milli K/X. 248**

Həcmi: 118 vərəq
Ölçüsü: 16 sm
Xətti: nəsx
Sətir sayı: 23
Tarixi: XVII əsr

**30. Yenə həmin əsər**
**Paris Milli K/X. 1195**

Həcmi: 297 vərəq
Ölçüsü: 16 sm
Xətti: nəstəliq
Sətir sayı: 25
Tarixi: 1909

**31. Yenə həmin əsər**
**Sankt-Peterburq Saltıkov-Şedrin adına K/X. № 35**

Həcmi: 231 vərəq
Ölçüsü: 23 x 12,5 sm
Katibi: Kəmaləddin əl-Hüseyni
Tarixi: h. 975/1568

**32. Yenə həmin əsər**
**Sankt-Peterburq Saltıkov-Şedrin adına K/X. № 36**

Həcmi: 174 vərəq
Ölçüsü: 25,5x18 sm

Katibi: Əhməd ibn Qulam
Tarixi: h. 980/1572

**33. Yenə həmin əsər**
**Sankt-Peterburq Saltıkov-Şedrin adına K/X. № 37**

Həcmi: 285 vərəq
Ölçüsü: 29x18,5 sm
Katibi: Məhəmməd Şərif ibn Əbdülhəq Səbzvari
Tarixi: h. 1009/1600
Əlyazmanın səhifə ardıcıllığı pozulmuşdur.

**34. Yenə həmin əsər**
**Sankt-Peterburq Saltıkov-Şedrin adına K/X. № 38**

Həcmi: 152 vərəq
Ölçüsü: 23,5x14,5 sm
Tarixi: XVI əsr
Əsərin ixtisar edilmiş nüsxəsidir

**35. Yenə həmin əsər**
**Sankt-Peterburq Saltıkov-Şedrin adına K/X. № 39**

Həcmi: 5 vərəq
Ölçüsü: 22x18 sm
Katibi: Freytaq
Tarixi: 1863
Təzkirənin beşinci təbəqəsini əhatə edir.

**36. Yenə həmin əsər**
**Sankt-Peterburq Saltıkov-Şedrin adına K/X. № 40**

Bu nüsxə XVII əsrdə köçürülmüşdür. Naqisdir. Təzkirənin ancaq sonu mövcuddur.

**37. Yenə həmin əsər**
**İndia Ofis K/X. № 2753**

Həcmi: 246 vərəq
Ölçüsü: 8 $^{3/4}$ in by 6 $^{3/4}$
Xətti: nəsx

**38. Yenə həmin əsər**
**İndia Ofis K/X. № 2730**

Həcmi: 266 vərəq
Ölçüsü: 9 $^{3/4}$ in by 5 $^{3/4}$
Xətti: nəstəliq

**39. Yenə həmin əsər**
**İndia Ofis K/X. № 2337**

Həcmi: 420 vərəq
Ölçüsü: 6 $^{1/8}$ in by 3 $^{5/8}$
Xətti: nəsx

**40. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 2666**

Həcmi: 252 vərəq

Ölçüsü: 18x23,5 sm
Xətti: nəstəliq
Katibi: Həmdəm Hacı Şərəf
Tarixi: h. 999/1590
Kağızı: şərq
Cild: moruğu rəngli, ornamentli, medalyonlu şərq cildi.

**41. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 192 V**

Həcmi: 200+7vərəq
Ölçüsü: 17,5x25 sm
Xətti: təliq
Tarixi: XVI əsr
Kağızı: şərq
Cild: Orta Asiya istehsalı kağız

Təzkirənin mətnindən əvvəl Sədinin qəzəl, qəsidə və tərcibəndləri, Füzuli və Caminin əsərlərindən parçalar yer almışdır.

**42. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 2035**

Həcmi: 146 vərəq
Ölçüsü: 18,5x24,2 sm
Xətti: səliqəsiz nəstəliq
Tarixi: XVI əsr
Kağızı: Səmərqənd
Cild: Sarı-yaşıl rəngli, medalyonlu

Əlyazmanın 1-2, 7-12 və 146-cı vərəqləri başqa bir katib tərəfindən yazılıb, yapışdırılmışdır.

**43. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 2231**

Həcmi: 180 vərəq
Ölçüsü: 15,5x23,5 sm
Xətti: nəstəliq
Tarixi: h.1039/1629- cu il
Kağızı: Şərq kağızı
Cild: Yaşıl rəngli

**44. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 25**

Xətti: nəstəliq
Tarixi: h.1312/1894- cü il
Cild: Yaşıl

**45. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 1418**

Həcmi: 293 vərəq
Ölçüsü: 13,5x25 sm
Xətti: nəstəliq
Katibi: Mirzə Əbdül Qəyyum bin Rəhməti
Tarixi: h.1266/1850-ci il
Cild: sarı-yaşıl, medalyonlu

**46. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 1466**

Həcmi: 134 vərəq
Ölçüsü: 16x25 sm
Xətti: nəstəliq
Tarixi: XVII əsr
Cild: yaşıl
Əlyazmanın mətni 9-cu vərəqdən başlayır. Əvvəli və sonu naqisdir.

**47. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 1612**

Həcmi: 27 vərəq
Ölçüsü: 21,3x34,5 sm
Xətti: nəstəliq
Tarixi: XVI əsr
Cild: boz-mavi
Əlyazma ancaq təzkirənin əvvəlini əhatə edir.

**48. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 2031**

Həcmi: 187+4 vərəq
Xətti: nəstəliq
Katibi: Əbdürrəhim Əli Abadi
Tarixi: XVII əsr
Cild: tünd sarı, medalyonlu

**49. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyasının K/X. № 1971**

Həcmi: 148 vərəq
Ölçüsü: 12,5x19,5 sm
Xətti: təliq
Tarixi: XVI əsr
Cild: qara
Əlyazmanın əvvəli və sonu yoxdur. Nüsxə yalnız III və VII təbəqəni əhatə edir.

**50. Yenə həmin əsər**
**Sankt-Peterburq Dövlət Universiteti, Şərq şöbəsi № 61**

Həcmi: 244 vərəq
Ölçüsü: 27x16,5 sm
Xətti: nəstəliq
Sətir sayı: 15
Katibi: Mahmud Fazil ibn Hacı Feyzullah
Tarixi: h.1048/1639- ci il

**51. Yenə həmin əsər**
**Sankt-Peterburq Dövlət Universiteti, Şərq şöbəsi № 147**

Həcmi: 166 vərəq
Ölçüsü: 21,5x18 sm
Xətti: narın nəstəliq
Sətir sayı: 15
Tarixi: XVIII əsr
Cild: sadə karton
Bu əlyazma təzkirənin ixtisar edilmiş nüsxəsidir

**52. Yenə həmin əsər**
**AMEA Əlyazmalar İnstitutu M - 73**

Həcmi: 204 vərəq
Ölçüsü: 13x22 sm
Xətti: nəstəliq
Tarixi: h.990/1582
Cild: qara meşin
Mətn qədim Şərq kağızında qara və qırmızı mürəkkəblə yazılmış, zərli ornamentlərlə bəzədilmişdir.

**53. Yenə həmin əsər**
**AMEA Əlyazmalar İnstitutu M - 108**

Həcmi: 204 vərəq
Ölçüsü: 16x24 sm
Xətti: nəstəliq
Katibi: Məcdəddin
Yer: Dizful
Tarixi: h.1018/1609
Cild: qara meşin

**54. Yenə həmin əsər**
**AMEA Əlyazmalar İnstitutu M - 116**

Həcmi: 201vərəq
Ölçüsü: 14x23 sm
Xətti: nəstəliq
Katibi: Sadəddin ibn-Nurulla Ləngərudi
Tarixi: h.1035/1625

Təzkirənin bəzi yerləri ixtisar edilmişdir.

**55. Yenə həmin əsər**
**AMEA Əlyazmalar İnstitutu B - 2627**

Həcmi: 178 vərəq
Ölçüsü: 18x12 sm
Xətti: nəstəliq
Tarixi: XVII əsr
Nüsxə naqisdir.

**56. Yenə həmin əsər**
**AMEA Əlyazmalar İnstitutu C - 855**

Həcmi: 145 vərəq
Ölçüsü: 23x16 sm
Xətti: nəstəliq
Tarixi: XVII əsr
Nüsxənin əvvəli və sonu naqisdir.

**57. Yenə həmin əsər**
**Orta Asiya Dövlət Universitetinin Əsaslı K/X № 69**

**58. Yenə həmin əsər**
**Kembric Universitetinin K/X № 112-114**

**59. Yenə həmin əsər**
**Bodlean K/X № 348-359**

**60. Yenə həmin əsər**
**Bengal Asiya Cəmiyyəti Kolleksiyası № 218**

**61. Yenə həmin əsər**
**Bengal Asiya Cəmiyyəti Kolleksiyası № 49-50**

**62. Yenə həmin əsər**
**Ali Sipərsalar Mədrəsəsi K/X № 1117**

**63. Yenə həmin əsər**
**Ali Sipərsalar Mədrəsəsi K/X № 1118**

**64. Yenə həmin əsər**
**Ali Sipərsalar Mədrəsəsi K/X № 1119**

**65. Yenə həmin əsər**
**Ali Sipərsalar Mədrəsəsi K/X № 1120**

**66. Yenə həmin əsər**
**İran İslami Şura Məclisi K/X № 327**

**67. Əliquluxan Valeh Dağıstani. Riyazüş-şüəra.**
**Berlin K/X. supenger 332**

Həcmi: 20+595 vərəq
Ölçüsü: 32,5x20,5 sm
Xətti: nəstəliq
Tarixi: 14 şaban 1224 / 24 sentyabr 1809
Sətir sayı: 21

**68. Yenə həmin əsər**
**Berlin K/X. supenger 333**

Həcmi: 450 vərəq
Ölçüsü: 23x13 sm
Xətti: şikəstə
Sətir sayı: 14-18

**69. Lütfəli Bəy Azər. Atəşgədə.**
**AMEA Əlyazmalar İnstitutu D - 20**

Həcmi: 196 vərəq
Ölçüsü: 19x30 sm
Xətti: təliq
Tarixi: h.1161/1748
Katibi: Nəzər Əmənulla ibn Məhəmmədtəqi bəy Zəngəne-yi

**70. Yenə həmin əsər**
**AMEA Əlyazmalar İnstitutu C - 103**

Həcmi: 278 vərəq
Ölçüsü: 17x21 sm
Xətti: nəstəliq
Tarixi: h.1245/1829
Katibi: Məhəmmədbağır ibn Məhəmmədismayıl
Cildi: medalyonlu, zoğalı meşin

**71. Yenə həmin əsər**
**AMEA Əlyazmalar İnstitutu M - 238**

Həcmi: 230 vərəq
Ölçüsü: 18x26 sm
Xətti: nəstəliq
Tarixi: h.1251/1835
Cildi: zər basmalı tünd qəhvəyi meşin
Əlyazmanın ilk səhifələri zərli ornamentlə bəzədilmişdir.

**72. Yenə həmin əsər**
**AMEA Əlyazmalar İnstitutu M - 240**

Həcmi: 211 vərəq
Ölçüsü: 19x28 sm
Xətti: şikəstə
Cildi: əlvan qələmdani cild
Əlyazma əlvan və nəfis ornamentlərlə bəzədilmişdir.

**73. Yenə həmin əsər**
**İndia Ofis K/X. 2929**

Həcmi: 224 vərəq
Sətir sayı: 25 sətir
Ölçüsü: $11^{3/4}$ x $7^{3/8}$

**74. Yenə həmin əsər**
**İndia Ofis K/X. 3445**

Sətir sayı: 17

Xətti: nəstəliq
Ölçüsü: 8 $^{1/8}$ x 5 $^{3/8}$

**75. Yenə həmin əsər**
**Berlin K/X. 658**

Həcmi: 280 vərəq
Tarixi: 1223/1808
Xətti: şikəstə
Sətir sayı: 22

**76. Yenə həmin əsər**
**Berlin K/X. 213**

Həcmi: 432 vərəq
Ölçüsü: 31,5x20 sm
Tarixi: 1235/1820

**77. Yenə həmin əsər**
**Berlin K/X. 115**

Həcmi: 273 vərəq
Ölçüsü: 29,5x20 sm
Xətti: nəstəliq
Sətir sayı: 22-23

**78. Yenə həmin əsər**
**Kopenhagen K/X. Add. 19**

**79. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 5122**

Həcmi: 310 vərəq
Ölçüsü: 22x14 sm
Xətti: nəstəliq
Sətir sayı: 19
Tarixi: h. 1045
Cildi: karton

**80. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 462**

Xətti: nəstəliq
Tarixi: h. XII / XVIII əsr

**81. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 4865**

Həcmi: 301 vərəq
Ölçüsü: 24x14 sm
Kağızı: Avropa istehsalı

**82. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 38**

Həcmi: 219 vərəq
Ölçüsü: 31x21 sm
Sətir sayı: 25
Kağızı: Avropa istehsalı

**83. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 158**

Həcmi: 240 vərəq
Ölçüsü: 22,5x14 sm
Xətti: nəstəliq

**84. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 5054**

Həcmi: 271 vərəq
Ölçüsü: 25x16 sm
Sətir sayı: 22
Kağızı: Hindistan istehsalı
Cildi: karton

**85. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 133**

Həcmi: 249 vərəq
Ölçüsü: 31x19 sm
Sətir sayı: 25
Kağızı: Avropa istehsalı

**86. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 6328**

Xətti: nəstəliq
Ölçüsü: 30x20 sm
Cildi: qırmızı

**87. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 5272**

Həcmi: 272 vərəq
Ölçüsü: 28x19 sm
Tarixi: h. 1237
Xətti: nəstəliq
Kağızı: Avropa istehsalı

**88. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X 168**

Həcmi: 287
Ölçüsü: 30x21 sm
Xətti: nəstəliq
Kağızı: Avropa istehsalı

**89. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X. 2169**

Həcmi: 281 vərəq
Ölçüsü: 30x21 sm
Xətti: nəstəliq
Tarixi: h. 1248
Sətir sayı: 21
Kağızı: Avropa istehsalı

**90. Yenə həmin əsər**
**Ayətullah Mərəşi K/X. 2632**

Həcmi: 276 vərəq
Ölçüsü: 16x23 sm
Sətir sayı: 21
Xətti: nəstəliq
Tarixi: h. 1251

**91. Yenə həmin əsər**
**İran Milli K/X 100**

Həcmi: 238 vərəq
Ölçüsü: 220x140 mm
Sətir sayı: 25
Kağızı: Avropa istehsalı

**92. Yenə həmin əsər**
**İran Milli K/X 1286**

Həcmi: 329 vərəq
Ölçüsü: 145x90 sm
Sətir sayı: 21
Xətti: şikəstə-nəstəliq
Kağızı: Avropa
Cildi: karton

**93. Yenə həmin əsər**
**İran Milli K/X 253**

Ölçüsü: 212x135 mm

Sətir sayı: 21

**94. Yenə həmin əsər**
**Los-Ancels K/X M 445**

Həcmi: 318 vərəq
Tarixi: h. XII / XVIII əsr
Xətti: nəstəliq

**95. Yenə həmin əsər**
**Çikaqo Universiteti A – 12074**

Tarixi: h. 1223

**96. Yenə həmin əsər**
**Kitabxaneyi-Vəziri, Yəzd 275**

Həcmi: 275 vərəq
Xətti: nəstəliq

**97. Yenə həmin əsər**
**İsfahan Universiteti Mərkəzi K/X. 474**

Xətti: nəstəliq
Tarixi: h. XII / XVIII əsr

**98. Yenə həmin əsər**
**İsfahan Universiteti Mərkəzi K/X. 43**

Xətti: nəstəliq

Kağızı: Avropa istehsalı

**99. Yenə həmin əsər**
**Şəhid Mütəhhəri Ali mədrəsəsi K/X. Tehran 2726**

Həcmi: 229 vərəq
Ölçüsü: 18x12 sm

**100. Yenə həmin əsər**
**Şəhid Mütəhhəri Ali mədrəsəsi K/X. Tehran 2674**

Həcmi: 386 vərəq
Ölçüsü: 19x29 sm
Sətir sayı: 21
Tarixi: h. 1207
Kağızı: Səmərqənd istehsalı

**101. Yenə həmin əsər**
**Şəhid Mütəhhəri Ali mədrəsəsi K/X. Tehran 2682**

Həcmi: 340 vərəq
Ölçüsü: 20,5x30 sm
Sətir sayı: 15
Xətti: şikəstə-nəstəliq

**102. Yenə həmin əsər**
**Şəhid Mütəhhəri Ali mədrəsəsi K/X. Tehran 7074**

**103. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyası 53**

**104. Yenə həmin əsər**
**Tacikistan Elmlər Akademiyası 213**

Tarixi: h. 1230

**105. Yenə həmin əsər**
**Həzrət Ayətullahül-Üzma Borucerdi K/X. 176**

Həcmi: 238 vərəq
Ölçüsü: 19x29 sm
Xətti: nəstəliq
Tarixi: h. 1212 şaban
Sətir sayı: 25

**106. Yenə həmin əsər**
**İran İslami Şura Məclisi K/X. 886**

Həcmi: 420 vərəq
Xətti: nəsx
Sətir sayı: 21
Kağızı: Avropa istehsalı

**107. Yenə həmin əsər**
**İran İslami Şura Məclisi K/X. 322**

Həcmi: 128 vərəq
Xətti: nəstəliq
Sətir sayı: 20

**108. Yenə həmin əsər**
**İran İslami Şura Məclisi K/X. 5702**

Həcmi: 526 vərəq
Ölçüsü: 29x18 sm
Xətti: nəstəliq
Sətr sayı: 23
Kağızı: Avropa istehsalı

**109. Yenə həmin əsər**
**Mərkəz-i Ehya-i Miras-i İslam, Qum 1747**

Həcmi: 258 vərəq
Ölçüsü: 19,5x30 sm
Xətti: nəstəliq
Sətir sayı: 23

**110. Yenə həmin əsər**
**Mərkəz-i Ehya-i Miras-i İslam, Qum 138**

Həcmi: 307 vərəq
Ölçüsü: 15x26,5 sm

**111. Yenə həmin əsər**
**Mərkəz-i Ehya-i Miras-i İslam, Qum 1886**

Həcmi: 280 vərəq
Ölçüsü: 18x29 sm
Xətti: nəstəliq
Sətir sayı: 22

**112. Yenə həmin əsər**
**Hüseyn Miftahın şəxsi kolleksiyası, Tehran 1387**

**113. Yenə həmin əsər**
**Hüseyn Miftahın şəxsi kolleksiyası, Tehran 1113**

**114. Yenə həmin əsər**
**Hüseyn Miftahın şəxsi kolleksiyası, Tehran 816**

**115. Yenə həmin əsər**
**Hüseyn Miftahın şəxsi kolleksiyası, Tehran 582**

**116. Yenə həmin əsər**
**Gülüstan K/X. 860**

**117. Yenə həmin əsər**
**Gülüstan K/X. 861**

**118. Yenə həmin əsər**
**Gülüstan K/X. 862**

**119. Yenə həmin əsər**
**Gülüstan K/X. 863**

**120. Yenə həmin əsər**
**Gülüstan K/X. 1757**

**121. Yenə həmin əsər**
**Gülüstan K/X. 622**

**122. Yenə həmin əsər**
**Gülüstan K/X. 891**

**123. Yenə həmin əsər**
**Məhəmməd Fərhad Mötəmid kolleksiyası**

Həcmi: 183 vərəq
Ölçüsü: 30x19 sm
Xətti: şikəstə-nəstəliq
Tarixi: h. 1234 ramazan
Kağızı: Avropa istehsalı
Cildi: karton

**124. Yenə həmin əsər**
**Həsən Atifi K/X.**

**125. Yenə həmin əsər**
**Nemətullahi xanəgahının K/X. 389**

Həcmi: 526 vərəq
Ölçüsü: 27x15 sm
Sətir sayı: 25

**126. Yenə həmin əsər**
**Hafiz Fərmanfərmaiyan K/X.**

Tarixi: h. 1244 şaban

**127. Yenə həmin əsər**
**Şəhid Mütəhhəri Ali Mədrəsəsi K/X 7190**

Ölçüsü: 23x 13 sm
Xətti: nəstəliq-şikəstə
Tarixi: h. 1245
Sətir sayı: 26

**128. Yenə həmin əsər**
**Şəhid Mütəhhəri Ali mədrəsəsi K/X. 7075**

Həcmi: 299 vərəq
Ölçüsü: 29x20 sm
Xətti: nəstəliq
Sətir sayı: 21
Kağızı: Avropa istehsalı

**129. Yenə həmin əsər**
**İran İslami Şura Məclisi K/X. 189**

Həcmi: 229 vərəq
Ölçüsü: 27x15 sm
Sətir sayı: 25
Tarixi: h. 1245
Kağızı: İsfahan istehsalı

**130. Yenə həmin əsər**
**İran İslami Şura Məclisi K/X. 250**

Həcmi: 504 vərəq

Ölçüsü: 30x21 sm
Sətir sayı: 24
Kağızı: Avropa istehsalı

**131. Nəvvab Mir Möhsün Qarabaği. Təzkireyi-Nəvvab.**
**AMEA Əlyazmalar İnstitutu M - 67**
Azərbaycan və fars dillərində

Həcmi: 524 vərəq
Ölçüsü: 14x21 sm
Xətti: təliq
Yer: Şuşa

Burada, 1913-cü ildə Bakıda nəşr olunmuş "Təzkireyi-Nəvvab"a nisbətən, XIX əsrdə yaşamış Qarabağ şairləri haqqında daha geniş məlumat vardır.

**132. Musayev İbrahim Tahir. Riyazül-Arifin.**
**AMEA Əlyazmalar İnstitutu D - 207**
Azərbaycan və fars dillərində

Həcmi: 52 vərəq
Ölçüsü: 22x34 sm
Xətti: nəstəliq
Tarixi: h.1337/1918
Cildi: üzərinə mərməri kağız çəkilmiş karton

Əlyazma ağ cizgili kağıza yazılmışdır. Əsərin mətni qara, göy, bənövşəyi sərlövhələri isə qırmızı mürəkkəblə yazılmışdır.

**133. Sam Mirzə Səfəvi. Töhfeyi-Sami.**
**Kayseri Rəşid Əfəndi,**
**Əski əsərlər K/X. № 922**

Həcmi: 202 vərəq
Ölçüsü: 185x120 (112x68) mm
Xətti: təliq
Sətir sayı: 11

**134. Yenə həmin əsər**
**Amasya Bayəzid İl Xalq K/X. 05 Ba 1073**

Həcmi: 109 vərəq
Ölçüsü: 187x125 (125x60) mm
Xətti: təliq
Sətir sayı: 19
Kağızı: birləşik hərf filiqranlı.

Əlyazmanın şirazəsi dağınıq olub cildsizdir. Sərlövhələr qırmızı mürəkkəblə yazılmışdır. Sultan Bayəzid Cami Kitabxanasına aid vəqf möhrü və Abdalzadə Məhəmməd Əfəndiyə aid vəqf qeydi var.

**135. Yenə həmin əsər**
**Manisa İl Xalq K/X. 45 Hk 6381**

Həcmi: V+164 vərəq
Ölçüsü: 245x140 (148x65) mm
Xətti: təliq
Sətir sayı: 15
Kağızı: abadi

Cildi: tünd qırmızı meşin

1 a vərəqində 1804 tarixli Hacı Hüseyn bin Əhmədə aid vəqf möhürü var.

**136. Yenə həmin əsər**
**İstanbul Millət K/X.**
**Ali Əmiri Kolleksiyası 34 Ae 945**

Həcmi: 150 vərəq
Ölçüsü: 200x130 (136x68) mm
Xətti: ərəb təliqi
Sətir sayı: 15
Cildi: qırmızı dəri
Əlyazmanın əvvəli və sonu naqisdir.

**137. Yenə həmin əsər**
**Milli Kitabxana, Çankırı İl Xalq K/X. 18 Hk 180**

Həcmi: 181 vərəq

**138. Yenə həmin əsər**
**Vəqflər Genel Müdürlüyü,**
**Safranbolu İzzət Məhəmməd Paşa Kolleksiyası 65 Saf 550**

Həcmi: 142 vərəq
Ölçüsü: 205x130 (140x70) mm
Xətti: İran təliqi
Sətir sayı: 17
Kağızı: birləşik hərf filiqranlı
Cildi: qara meşin

Şair adları və cədvəllər qırmızı mürəkkəblə yazılmışdır. 2 a vərəqində qələmlə "Mustafa Umudun mülkiyyəti" yazılmışdır.

**139. Yenə həmin əsər**
**Çarls Şeffer kolleksiyası (Paris) P 182**

Həcmi: 139 vərəq
Ölçüsü: 12 sm
Xətti: təliq
Tarixi: XVII əsr
Sətir sayı: 20

**140. Yenə həmin əsər**
**Çarls Şeffer kolleksiyası (Paris) 1144**

Həcmi: 193 vərəq
Ölçüsü: 12 sm
Xətti: nəsx
Tarixi: h.1001 rəcəb/1593 aprel
Katibi: Dərviş Məhəmməd
Sətir sayı: 21

**141. Yenə həmin əsər**
**Çarls Şeffer kolleksiyası (Paris) 1145**

Həcmi: 57
Ölçüsü: 15 sm
Xətti: nəsx
Tarixi: XVI əsr

Sətir sayı: 20

**142. Yenə həmin əsər**
**Çarls Şeffer kolleksiyası (Paris) P 151**

Həcmi: 112
Ölçüsü: 13 sm
Xətti: nəsx
Tarixi: XVIII əsr
Sətir sayı: 21

**143. Yenə həmin əsər**
**Özbəkistan EA Şərqşünaslıq İnstitutu № 57**

Həcmi: 201 vərəq
Ölçüsü: 11,5x22 sm
Xətti: nəstəliq
Tarixi: h. 984/1576
Sətir sayı: 20

**144. Yenə həmin əsər**
**Rusiya EA Şərqşünaslıq İnstitutu B - 116**

Həcmi: 262 b-332 b
Nüsxə naqisdir.

**145. Yenə həmin əsər**
**Rusiya EA Şərqşünaslıq İnstitutu B - 118**

Həcmi: 77 vərəq
Naqisdir.

**146. Yenə həmin əsər**
**Sankt - Peterburq Dövlət Universiteti**
**Şərqşünaslıq İnstitutu 950 e**

Həcmi: 101-133
Ölçüsü: 23x16,5 (19x14) sm
Xətti: nəstəliq
Tarixi: I vərəqində əlyazmanın bərpası zamanı h.1231 / 1815-ci il yazılmışdır.
Cildi: karton

Nüsxə naqisdir. Ancaq I, V (əvvəli yoxdur), VI və VII (sonu yoxdur) fəsilləri əhatə edir.

**147. Yenə həmin əsər**
**Sankt - Peterburq Dövlət Universiteti**
**Şərqşünaslıq İnstitutu 101**

**148. Yenə həmin əsər**
**Ayətullah Mərəşi Ümumi K/X. № 3674**

Həcmi: 200 vərəq
Ölçüsü: 14x21 sm
Xətti: nəstəliq
Tarixi: h.979-ci il 12 ramazan / 1572-ci il 28 yanvar

**149. Yenə həmin əsər**
**Ayətullah Mərəşi Ümumi K/X. № 7531**

Həcmi: 167 vərəq

Ölçüsü: 13x20 sm
Xətti: nəstəliq
Tarixi: h. 996 ramazan /1588 avqust
Cildi: qəhvəyi
Sətir sayı: 13

**150. Yenə həmin əsər**
**Ayətullah Mərəşi Ümumi K/X. № 12096**

Həcmi: 173 vərəq
Ölçüsü: 6x12 sm
Tarixi: h. 998
Katibi: Məhəmməd Fərzəndi Əbdülkərim

**151. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X. 49443**

Həcmi: 127 vərəq
Ölçüsü: 20x13 sm
Tarixi: h. 976

**152. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X. 169**

Həcmi: 225 vərəq
Ölçüsü: 21x13 sm
Xətti: nəstəliq
Cildi: karton

**153. Yenə həmin əsər**
**Tehran Universiteti Mərkəzi K/X. 3007**

Həcmi: 45 vərəq
Ölçüsü: 124x15 sm
Xətti: nəstəliq
Sətir sayı: 17
Kağızı: Səmərqənd istehsalı

**154. Yenə həmin əsər**
**Məlik Milli K/X. 3848**

Həcmi: 176 vərəq
Ölçüsü: 25x15 sm
Xətti: nəstəliq
Sətir sayı: 12
Cildi: meşin

**155. Yenə həmin əsər**
**Müctəba Minui K/X. 67**

Xətti: nəsx
Tarixi: h. 1174

**156. Yenə həmin əsər**
**İran İslami Şura Məclisi K/X. 615**

**157. Yenə həmin əsər**
**İran İslami Şura Məclisi K/X. 529**

**158. Yenə həmin əsər**
